

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

"Türk xalqlarının birləşməsində Heydər Əliyevin böyük rolu olub"




5

№ 085 (6768)

SƏS

17 may 2023-cü il.
Qiyməti 60 qəpik

# Növbəti Brüssel görüşü: Azərbaycanın şərtləri yenə keçərli oldu!



3

Bu, Azərbaycan Prezidenti İlham Əliyev diplomatiyasının daha bir qələbəsidir

# İki bəyannamə, bir dəhliz




11

## Azad torpaqlarımız: Hadruta yeni həyat gəlir!



8

## ABŞ Dövlət Departamenti: "Brüsseldə keçirilən üçtərəfli görüş irəliyə doğru mühüm addımdır"




2

## Azərbaycan ümumavropa qaz təchizatçısıdır



6

## Dünyanın maraq dairəsində olan SEÇKİ



4

## Mavi təsdiq butonu üçün niyə dəridən-qabıqdan çıxırlar?



13

# “Azərbaycan ilə İordaniya dost və qardaş ölkələrdir”

## Azərbaycan Prezidenti İlham Əliyev İordaniya parlamentinin Nümayəndələr Palatasının sədrini qəbul edib

**Prezident İlham Əliyev mayın 16-da İordaniya Haşimilər Krallığı parlamentinin Nümayəndələr Palatasının sədri Əhməd Əs-Səfadini qəbul edib. Prezident İlham Əliyev Əhməd Əs-Səfadinin Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Azərbaycan Respublikası Milli Məclisinin xüsusi iclasında iştirakından məmnunluğunu bildirib.**

Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin fəaliyyəti nəticəsində ölkəmiz ən ağır dövrlərdə öz müstəqilliyini qoruyub saxlaya bildi və inkişaf yoluna qədəm qoyub. İkitərəfli münasibətlərə toxunan dövlətimizin başçısı Azərbaycanla İordaniyanın dost və qardaş ölkələr olduğunu və əlaqələrimizin müxtəlif istiqamətlər üzrə uğurla inkişaf etdiyini bildirib.

Əməkdaşlığımızın genişlənməsində qarşılıqlı səfərlərin önəmini qeyd edən Azərbaycan Prezidenti Əhməd Əs-Səfadinin ölkəmizə səfərinin parlamentlərarası əlaqələrin genişlənməsi işinə töhfə verəcəyinə və münasibətlərimizin perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaradacağına əminliyini ifadə edib.

Dövlətimizin başçısı ilə görüşdən şərəf hissi duyduğunu bildirən Əhməd Əs-Səfadi İordaniya Kralı II Abdullah ibn Al Hüseynin salamlarını Azərbaycan Prezidentinə çatdırıb. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını İordaniya Kralına çatdırmağı xahiş edib.





Qonaq vurğulayıb ki, Azərbaycanla İordaniya arasında dostluq və tərəfdaşlıq münasibətlərinin əsasının qoyulmasında dünya səviyyəli şəxsiyyətlər Heydər Əliyevin və İordaniya Kralı Hüseyn bin Talalın xüsusi rolları olub.

Əhməd Əs-Səfadi qeyd edib ki, Azərbaycan dövlətinin banisi Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində ölkəmiz böyük uğurlara və nailiyyətlərlə imza atıb. O vurğulayıb ki, Azərbaycan Avropanın ən qabaqcıl ölkələri ilə müqayisə oluna biləcək dərəcədə inkişaf yolundadır.

Görüşdə ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin və turizm sahəsində əməkdaşlığın genişləndirilməsi imkanları barədə fikir mübadiləsi aparılıb. Sonda Əhməd Əs-Səfadi dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim edib.

## *ABŞ Dövlət Departamenti:* "Brüsseldə keçirilən üçtərəfli görüş irəliyə doğru mühüm addımdır"




**Mayın 14-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan arasında keçirilən üçtərəfli görüş irəliyə doğru mühüm addımdır. Bu barədə mütəmadi brifinq zamanı ABŞ Dövlət Departamentinin mətbuat katibinin müavini Vedant Patel deyib.**

”ABŞ bu danışıqlarda iştirak etməyib. Amma Arlinqtonda apardığımız danışıqların davamı olaraq hesab edirik ki, bunlar irəliyə doğru mühüm addımlardır. Fikrimizcə, bu iki ölkə - Azərbaycan və Ermənistan arasında davamlı sülh mümkündür”, - deyə V.Patel qeyd edib.

## Dünya mediası Prezident İlham Əliyevin Brüsseldə keçirdiyi görüşləri geniş işıqlandırıb

Rumıniyanın qabaqcıl KİV-ləri - ”Ecopolitic news”, ”Amosnews”, ”Agepres”, ”Financial intelligence”, ”G4media”, ”Presa online”, ”Cugetul Liber” kimi qəzetləri və xəbər portalları Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin iştirakı ilə Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilmiş görüşlər barədə geniş informasiyalar yayıb.







Belə ki, məlumatlarda görüşdən sonra keçirilən mətbuat konfransında Şarl Mişelin Azərbaycan və Ermənistan liderlərinin ”Alma-Ata Bəyannaməsi”nə birmənalı sadiqliklərini təsdiqlədiklərini bildirdiyi qeyd olunub. Vurğulanıb ki, tərəflər, həmçinin sərhədlərin delimitasiyası ilə bağlı atılacaq növbəti addımları müzakirə ediblər. Liderlər sərhəd məsələləri ilə bağlı ikitərəfli görüşlərin bərpasına dair razılığa gəliblər. Diqqətə çatdırılıb ki, sərhədlərin delimitasiyasının yekunlaşdırılması danışıqlar vasitəsilə baş tutacaq.



# Növbəti Brüssel görüşü: Azərbaycanın şərtləri yenə keçərli oldu!

## Bu, Azərbaycan Prezidenti İlham Əliyev diplomatiyasının daha bir qələbəsidir

**Nəhayət ki, gözlənilən Brüssel görüşü baş tutdu. Azərbaycan və Ermənistan liderlərinin Avropa İttifaqı Şurasının prezidentinin vasitəçiliyi ilə baş tutan budəfəki görüşü də Azərbaycan tərəfinin diplomatik uğurudur. Təkcə bir faktı qeyd etmək yerinə düşər ki, ilk dəfə rəqəmlərlə ifadə olunan, Azərbaycanın 86,6 min kv.km, Ermənistanın 29,8 min kv. km ərazisinin qarşılıqlı şəkildə tanındığı vurğulanıb. Avropa İttifaqı Şurasının Prezidentinin təşkilatçılığı ilə Azərbaycan Respublikasının Prezidenti və Ermənistanın baş naziri arasında mayın 14-də Brüssel formatında sayca beşinci görüş bir daha Azərbaycan Prezidenti İlham Əliyevin diplomatiyasının qələbəsidir.**

### PREZİDENT İLHAM ƏLİYEV VƏ ŞARL MİŞEL TƏRƏFİNDƏN ƏSASI QOYULAN BRÜSSEL SÜLH GÜNDƏLİYİ

Yeri gəlmişkən, xatırladaq ki, Cənubi Qafqazda postmüharibə dövründə Azərbaycanın sülh və sabitliyə sadiqliyi, xüsusilə, dünyada ən böyük siyasi və iqtisadi mərkəzlərdən biri olan Avropa İttifaqı tərəfindən yüksək səviyyədə dəstəkləndi. Aİ Şurasının Prezidenti Şarl Mişellə Azərbaycan Prezidenti İlham Əliyev arasında intensiv dialoq və təmaslarla Azərbaycan-Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində müvafiq mexanizmin formalaşması və predmetli danışıqlara başlanmasında, sülh müqaviləsi, sərhədlərin delimitasiyası, kommunikasiyaların açılması kimi məsələlərin həlli istiqamətində əməli addımlar atılmasında özünü qabarıq büruzə verdi. Nəticədə, postmüharibə dövründə yeni format - Brüssel sülh gündəliyi yarandı. İlk üçtərəfli görüş 2021-ci il dekabrın 14-də keçirildi, bununla da Prezident İlham Əliyev və Şarl Mişel tərəfindən Brüssel sülh gündəliyinin əsası qoyuldu və tərəflər arasında intensiv təmaslar aparıldı, telefon danışıqları gerçəkləşdirildi. Xatırladaq ki, Brüssel sülh gündəliyində prioritet istiqamət olan sülh razılaşmasının əsas komponenti Azərbaycanın irəli sürdüyü 5 maddədən ibarət təklif və bunun əsasında predmetli danışıqların aparılmasıdır. Bu sənəddə əsas məqam Azərbaycanın ərazi bütövlüyüdür.Və avqustun 31-də Brüsseldə keçirilən dördüncü üçtərəfli görüş dövlətimizin başçısı Şarl Mişelin vasitəçiliyi ilə konkret nəticə əldə edə bildi. Beləliklə, bir ay müddətində Xarici İşlər Nazirliyi xətti ilə sülh sazişinin mətni üzərində işə başlamaq üçün qruplar yaratmaq barədə razılıq əldə olundu. Qeyd edək ki, yeni sənəddə Qarabağ mövzusu, həmçinin ATƏT-in Minsk Qrupu yer almayıb, MQ formatının artıq tarixdə fəaliyyətsiz bir qurum kimi qalması, əvəzində Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması məsələsində Aİ-nın vasitəçilik formatının mövcudluğu öz ifadəsini tapıb. Bir sözlə, Azərbaycanın daxili işi olan Qarabağ mövzusunun müzakirə edilmədiyi qənaəti təsdiqlənib. Bununla belə sülh müqaviləsinin Bakının irəli sürdüyü və İrəvanın qəbul etdiyi məlum beş prinsip əsasında qurulacağı nəzərdə tutulub. Bütün bunlar isə Ermənistanı sülhə məcbur edən ”Dəmir yumruğ”un gücüdür. Bir sözlə, beşinci Brüssel görüşündə də

### NÖVBƏTİ BEŞİNCİ ÜÇTƏRƏFLİ GÖRÜŞLƏRDƏ YENƏ DƏ AZƏRBAYCANIN ŞƏRTLƏRİ KEÇƏRLİ OLDU

Bu gün Azərbaycan 44 günlük müharibədə düşmən üzərində hərbi qələbə çaldıqdan dərhal sonra bölgədə sülhün bərqərar olması üçün diplomatik müstəvidə də ardıcıl və uğurlu addımlar atmağa başlayıb. Prezident İlham Əliyev əvvəlki görüşlərdə də bildirib ki, bizim regionda vəziyyət sülhə doğru inkişaf edir, mən buna ümid edirəm: ”Biz sülh sazişinin üzərində qurulmalı olduğu beş baza prinsipini irəli sürdük və Ermənistan bunu qəbul edib”.Bəli, 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar bəyanatları ilə qazandığımız diplomatik qələbələr ötən ilin 26 noyabrında Soçi bəyanatı ilə daha da möhkəmlənib. Belə ki, Avropa İttifaqının vasitəçiliyi ilə ”Brüssel prosesi” sayəsində isə üçtərəfli bəyanatlarda nəzərdə tutulan məsələlərin real müstəvidə həlli ilə bağlı əhəmiyyətli irəliləyişlərə nail olunub. Xüsusilə, üçüncü Brüssel görüşündə Azərbaycanın irəli sürdüyü 5 prinsip Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən qəbul edildi. Yəni bu, o deməkdir ki, iki ölkə arasında imzalanacaq sülh müqaviləsi rəsmi Bakının irəli sürdüyü məlum baza prinsipi əsasında qurulacaq. Lakin Ermənistan hələ də bundan yayınsa da, bundan sonrakı Brüsseldə keçirilən dördüncü və növbəti beşinci üçtərəfli görüşlərdə də yenə də Azərbaycanın şərtləri keçərli oldu və sülh prosesi ilə bağlı real addımlar atmağın mütləqliyini ortaya qoydu. Artıq iki ilə yaxın müddətdə hər cür hiylə, təxribatçı əməllərlə sülhə nail olmağı yubadan Ermənistanın bundan yayınmaq yolları bağlandı və o, sülh razılaşmasına məcbur edildi.

Bəli, növbəti beşinci Brüssel görüşü bir daha sübut etdi ki, şərtləri qalib lider diktə edir və məğlub olan ölkənin rəhbəri də bu şərtlərə əməl etməlidir. İstər Soçi, istərsə də Brüssel görüşlərində bir daha sübut olundu ki, Azərbacan Prezidenti qalib lider olaraq Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə keçirilən görüşdə də həqiqətləri açıqlayacaq və açıqladı da! Prezident müharibədən ötən bir il ərzində Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda gördüyü böyük işləri göstərərək dünyaya bəyan etdi ki, Azərbaycan, hər zaman olduğu kimi, sülh tərəfdarıdır. Öhdəliklərin yerinə yetirilməsi də bölgədə təhlükəsizliyin təminatına xidmət edəcək. Ancaq görünən odur ki, Ermənistan yenə də hansısa bəhanələr uydurmaqla vaxt uzadır. Yəni, Azərbaycan bu istiqamətdə nəticəyönümlü addımlar atır. Amma Ermənistan da xoş məram sərgiləməlidir və Zəngəzur dəhlizi ətrafında manipulyasiyadan əl çəkməlidir. Çünki 10 noyabr 2020-ci il imzalanan üçtərəfli bəyanatda açıq-aydın deyilir ki, Azərbaycan Qarabağla Ermənistan arasında əlaqə üçün təhlükəsizliyi, maneəsiz çıxışı təmin edir və Ermənistan Azərbaycanla Naxçıvan arasında əlaqələr üçün eyni maneəsiz çıxış və təhlükəsizliyi təmin etməlidir.

Və görüşdə də Azərbaycan tərəfinin regionda sülh və sabitliyin təmin edilməsi ilə bağlı prinsipial mövqeyi bir daha tərəf-müqabillərin diqqətinə çatdırılıb. Xüsusilə də, dövlətlərin ərazi bütövlüyünə hörmətin bir daha təsbit olunması, bu kontekstdə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün Ermənistan tərəfindən də qəbul edilməsi müstəsna əhəmiyyət daşıdığı vurğulanıb. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə keçirilmiş görüşün yekunlarına dair mətbuata açıqlamasında bildirib ki, Azərbaycan ilə Ermənistan arasında əhatəli sülh sazişinin imzalanması üçün qətiyyətli addımlar atılmalıdır: ”Əsas diqqət Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesinə yönəldilmişdi. Azərbaycan ilə Ermənistan arasında əhatəli sülh sazişinin imzalanması üçün qətiyyətli addımlar atılmalıdır”.Həmçinin, görüşdə Azərbaycanın təşəbbüsü ilə Zəngəzur dəhlizinin reallaşması ideyası Avropa Birliyi tərəfindən dəstəklənməsi oldu. Bir sözlə, görünən odur ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət yenə də öz sözünü dedi. Nəticədə də Azərbaycanın regiona davamlı sülh vəd edən təşəbbüslərinə qarşı Ermənistan hər hansı alternativ təqdim edə bilmədi.

### ÖHDƏLİKLƏRİNƏ SADİQ ÖLKƏ - BEŞİNCİ BRÜSSEL GÖRÜŞDƏ DƏ AZƏRBAYCAN HƏRTƏRƏFLİ ÜSTÜNLÜYÜNÜ TƏMİN ETDİ

Əvvəlki dörd Brüssel görüşündə olduğu kimi, beşinci Brüssel görüşündə də Azərbaycan bir daha göstərdi ki, 10 noyabr üçtərəfli Bəyanatında nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməsinə və Brüssel görüşlərində aparılan danışıqlar zamanı qəbul edilən qərarlara sadiqdir. Buna misal kimi sərhədlərin delimitasiyası komissiyasının dərhal yaradılmasını, eləcə də yeni Laçın yolunun 3 ilə deyil, daha tez hazır olmasını, Zəngəzur dəhlizinin açılması istiqamətində dəmir və avtomobil yolunun tikintisinin sürətləndirilməsini göstərmək yetərlidir. Əlbəttə ki, bütün bunlar regionda uzunmüddətli sülhün bərqərar olması istiqamətində mühüm addımlardır. Üçtərəfli görüşdən sonra Şarl Mişelin verdiyi bəyanata nəzər yetirdikdə aydın görünür ki, Avropa İttifaqı ilk növbədə regionda sülhün tezliklə bərqərar olmasında çox maraqlıdır. Kommunikasiyaların açılması, nəqliyyat-tranzit məsələlərinin həllini tapması Cənubi Qafqazın inkişafı ilə yanaşı, regionda sabitliyi daha da möhkəmləndirəcək. Ona görə də Avropanın siyasi mərkəzi olan Brüssel görüşləri sülh prosesinə töhfə kimi dəyərləndirilir. Bəli, bundan öncə keçirilən dörd görüşdə olduğu kimi, beşinci görüşdə də Azərbaycan hərtərəfli üstünlüyünü təmin etdi. Beləliklə, Avropa İttifaqı Şurasının və şəxsən prezident Şarl Mişelin bu prosesdə rolu Azərbaycanın bütövlükdə bölgənin gələcəyinə təminat verən milli maraqlarına uyğundur və bu mənada Brüssel prosesinin davamında uğurlu yekun sülh sazişinə ümid etmək olar. Çünki artıq ermənilər də dərk edirlər ki, nəinki Qarabağda və Azərbaycanın sərhədləri daxilində, hətta Cənubi Qafqazda baş verən proseslər də qalib ölkənin maraqlarına uyğun şəkildə həyata keçirilir.

Regionda baş verən bütün proseslərin hərəkətverici qüvvəsi rolunda Azərbaycan iştirak edir. Və Azərbaycanın Zəngəzur dəhlizinin açılması istiqamətindəki israrı da reallaşacaq. Bununla da Cənubi Qafqazın nəqliyyat-logistika imkanları daha da genişlənəcək. Yeni imkanların yaranması ilk növbədə Ermənistanın düşdüyü acınacaqlı durumdan xilası ola bilər. Bir sözlə, həm Soçi, həm də Brüssel görüşləri bir daha təsdiq etdi ki, qalib ölkənin qalib lideri Azərbaycan Prezidenti İlham Əliyevin irəli sürdüyü 5 prinsipdən hər hansısa birini Ermənistan həyata keçirməkdən boyun qaçırarsa, sülh müqaviləsi imzalanmayacaq. İstənilən etirazı, təxribatı isə ”Dəmir yumruq” əzəcək.

***RƏFİQƏ KAMALQIZI***

# Dünyanın maraq dairəsində olan SEÇKİ

**Türkiyə Cümhuriyyətinin 100 illiyinə təsadüf edən prezident və parlament seçkiləri, məhz bu baxımdan tarixi hadisə olaraq qiymətləndirilir. Bununla yanaşı, xüsusilə diqqətçəkən məqam ondan ibarətdir ki, seçkilərin nəticələri təkcə Türkiyə dövlətinin milli maraqları çərçivəsi ilə yekunlaşmır, milli sərhədləri belə aşır, hətta qlobal məna və məzmun kəsb edir. Bu baxımdan, qardaş ölkədə keçirilən seçkilərin istər Avropada, istərsə də dünyanın istənilən yerində diqqətlə izlənilməsi, seçkinin nəticələri ilə bağlı maraqlanılması təsadüfi sayılmır.**

Sirr deyil ki, son 20 il ərzində Türkiyə NATO çərçivəsində ikinci hərbi güc sahibinə çevrilib. Bütün dünya ictimaiyyəti qəbul və etiraf edir ki, Türkiyə dünya siyasətində artıq regional oyunçu deyil, qlobal aktora çevrilib və bu, məhz qardaş ölkə prezidentinin liderliyi, qətiyyəti, siyasi iradəsi, bacarığı sayəsində olub. Dünya ictimaiyyəti bu reallıqları çox yaxşı görür və Türkiyənin, bu qardaş ölkə Prezidentinin dünya miqyasında söz sahibinə çevrildiyinə kimsənin şübhəsi ola bilməz, çünki hər kəs bilir ki, dünya liderlərinin həll edə bilmədiyi qlobal təhlükəsizlik məsələlərinin tənzimlənməsində belə Türkiyə Prezidentinin xidmətləri misilsizdir. Məsələn, Rusiya-Ukrayna müharibəsi fonunda Yaxın Şərqdə və Afrika ölkələrində qida təhlükəsizliyi, yaranmış ciddi buğda qıtlığı böhranının aradan qaldırılmasında, eləcə də Rusiya ilə Ukrayna arasında dialoqunun təşkil olunması istiqamətində Türkiyə liderinin həlledici rol olnadığı bu qənaətə gəlməyə əsas verir. Bu baxımdan deyə bilərik ki, Türkiyədə keçirilən prezident və parlament seçkiləri bütün dünyanın maraq dairəsindədir.





Avropalılar da Türkiyə liderinin hansı qətiyyətə, hansı siyasi iradəyə, hansı bacarığa sahib olduğunu yaxşı bilirlər. Yaxşı bilirlər ki, təxminən 4 milyon nəfərə qədər suriyalı qaçqına qucaq açıb, onların bütün təminatını üzərinə götürməklə, Türkiyə Prezidenti həm də Avropanı hansı səviyyəli böyük miqrasiya böhranından xilas edib. Bir sözlə, avropalılar Türkiyənin də, bu qardaş ölkə liderinin də rolunu dana bilməzlər, çünki sadalananlar sözdə deyil, əməldə öz təsdiqini dəfələrlə tapıb. Qardaş ölkə liderinin təkcə Türkiyə deyil, digər ölkə vətəndaşları üçün də humanizm prinsplərini əsas götürdüyü günümüzün reallığıdır və bunu təkzib etmək mümkün deyil. Təkzib etmək mümkün deyil ki, qardaş ölkə məhz son 20 ildə ən şərəfli yol keçib və bunun fonunda Türkiyə ilə hesablaşmamaq mümkünsüzdür. Deməli, həqiqətən də bütün dünya artıq bu şərəfli yolu keçən, böyük, qüdrətli dövlətə çevrilən Türkiyə ilə, bu ölkənin lideri ilə hesablaşmaq məcburiyyətindədir. Bu baxımdan, Türkiyədə keçirilən prezident və parlament seçkilərinə dünyanın istənilən nöqtəsində göstərilən maraq başadüşüləndir. Bu maraq, sözsüz ki, mövqe baxımından bir neçə istiqamətdə xarakterizə oluna bilər və əsasən, iki istiqamət burada daha çox diqqəti cəlb edir. Birincisi, dünyanın müxtəlif ölkələrinin, həmin ölkələrin liderlərinin həll edə bilmədiyi qlobal təhlükəsizlik məsələlərinin tənzimlənməsində məhz Türkiyənin, bu ölkə liderinin əvəzedilməz rolunu etiraf edənlər qardaş ölkənin prezidentini layiqincə qiymətləndirirlər. Məhz bu baxımdan onlar üçün Türkiyədə keçirilən prezident və parlament seçkiləri maraq kəsb edir, onlar seçkiləri maraqla izləyirlər. İkincisi isə, məhz siyasi iradəsi ilə seçilən qətiyyətli lideri sayəsində Türkiyənin qüdrətli dövlətə çevrilməsinə qısqanclıq hissi ilə yanaşanlar, qardaş ölkənin dinamik inkişafından, bütün dünyada həlledici rola malik olmasından, söz sahibinə çevrilməsindən narahatlıq hissi keçirənlər də var ki, onlar da bu seçkiləri maraqla izləyirlər. Məsələn, Ermənistan və bu işğalçı ölkənin havadarı olan, ikili standartlar siyasəti yürüdən, ədalətsiz mövqeyi ilə seçilən ölkələr üçün güclü lideri olan qüdrətli Türkiyə yuxularının ərşə çəkilməsi deməkdir, hansı ki, qüdrətli bir liderin növbəti dəfə prezident seçilməsi onların maraqları xarıcindədir və bu baxımdan, onların da diqqəti sözügedən seçkilərə yönəlib. İstənilən hər bir halda, Türkiyədə keçirilən prezident və parlament seçkilərinin maraqla izlənildiyi bəllidir və səbəbləri də aydındır.






Türkiyədə keçirilən prezident seçkilərinin nəticələri təkcə Türkiyədə deyil, bütövlükdə regionda da böyük maraqla izlənilir. Çünki məhz Türkiyənin bundan sonrakı inkişafı, tutduğu yol region üçün də mühüm amil olaraq qiymətləndirilir.

Bunu nəinki Türkiyə vətəndaşları, eləcə də dünya ictimaiyyəti çox yaxşı bilir. Yaxşı bilir ki, son 20 il ərzində qardaş Türkiyə bir ölkə olaraq əsrə bərabər inkişaf yolu keçib, nailiyyətləri isə saysız-hesabsızdır. Bələki, Türkiyə G-20 ölkələri daxilində Ümumi Daxili Məhsulun artım tempinə görə ilk beşliyə daxildir və güclü iqtisadiyyata malik olan Türkiyə ÜDM-nin səviyyəsinə görə dünyada 18-ci yeri tutur, hansı ki, bu göstərici son 20 il ərzində iki dəfə artaraq, 736,716 milyard ABŞ dolları həddinə çatıb. Bu isə onu deməyə əsas verir ki, Cümhuriyyətin 100 illiyində, yəni 2023-cü ildə Türkiyəni dünyanın ən nəhəng iqtisadiyyatı olan ölkələr sırasında qərarlaşması barədə hədəflərə nail olunub. Peşəkar xidmət sahəsində dünyanın ən böyük kompaniyalardan biri olan "Pricewaterhouse Coopers"in apardığı tədqiqatların nəticələrinə görə, 2030-cu ilədək Türkiyə iqtisadiyyatı dünyada 12-ci yerə yüksələcək, ÜDM isə 2, 996 trln ABŞ dolları həddində olacaqdır. Digər tədqiqatların da nəticələrinə istinad etsək deyə bilərik ki, 2050-ci ildə Türkiyədə ÜDM 5 trln-dan çox olacaq, hansıki bu, çox böyük inkişaf tempi deməkdir və belə bir inkişaf tempinə malik olan ölkədə keçirilən seçkilərin böyük maraqla izlənilməsi tam məntiqi və anlaşılandır.

Türkiyədə keçirilən prezident və parlament seçkilərinin nəticələri, hələlik, tam açıqlanmasa da Azərbaycan ictimaiyyətinin bu seçkiləri diqqətlə izləməsi, xalqımızın qardaş ölkə ilə bağlı biganə qalmadığını, eləcə də hansı "seçimi" etdiyini göstərir. Əgər Türkiyədə keçiriləcək prezident seçkilərində Azərbaycan xalqının iştirak etməsinin hüquqi əsasları olsaydı, seçicilərimizin mütləq əksəriyyəti məhz həmin seçkilərdə yaxından iştirak edər, qardaş ölkənin uğurlu gələcəyinə səs verərdi. Azərbaycan ictimaiyyəti çox yaxşı bilir ki, tarixən dost və qardaş olan dövlətlərimiz arasındakı münasibətlər, məhz qardaşlıq sayəsində indiki strateji və hərbi müttəfiqlik səviyyəsinə yüksəlibdir. Təbii ki, qardaş Türkiyə dövlətinin 44 günlük Vətən müharibəsinin ilk anından başlayaraq Azərbaycanın yanında olduğu, ölkəmizə böyük mənəvi və siyasi dəstək göstərdiyi, müharibənin davam etdiyi dönəmdə qardaş ölkə tərəfindən verilən bəyanatlar fonunda üçüncü dövlətlərin Ermənistanın yanında yer almaq niyyətlərindən vaz keçdiyi unudulan deyil. Həmçinin o da unudulan deyil ki, Türkiyədə baş vermiş zəlzələnin fəlakətli nəticələrinin aradan qaldırılması prosesində Azərbaycan ən tez köməyə çatdı və öz töhfələrini verdi, hansı ki, bütün bunlar, dostluq və qardaşlığımızın hər zaman olduğu kimi, davamlı şəkildə tarixin sınağından şərəflə çıxmağa olduğunu təsdiqləyir. Bir sözlə, xalqımız üçün qardaş ölkənin taleyüklü seçkisi olduqca önəmlidir, maraqlıdır və qardaşlığımızın, dostluğumuzun daha da dərinləşəcəyinə inamımız böyükdür.

***İnam Hacıyev***

# Heydər Əliyev-100




## “Türk xalqlarının birləşməsində Heydər Əliyevin böyük rolu olub”

### Milli Məclisin Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclası keçirilib

**Dünən Milli Məclisin xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclası keçirilib.**

İclası açan Milli Məclisin sədri Sahibə Qafarova Azərbaycanın tarixi ərzində yetişdirdiyi ən böyük siyasi və dövlət xadimlərindən biri olan Heydər Əliyevin keçdiyi ömür yolunun doğma torpağa, xalqa məhəbbət və sədaqət meyarına çevrildiyini, fəaliyyətinin dünya siyasət sənəti xəzinəsinə daxil olduğunu bildirib. Qeyd edib ki, Ulu Öndərin sayəsində xalqımız əvvəlcə siyasi və dövlət



müstəqilliyinin möhkəm təməlini yaradıb, daha sonra isə müstəqil dövlətini qurmaq, qorumaq və yaşatmaq üçün tarixin verdiyi imkanı reallaşdıra bilib. Diqqətə çatdırılıb ki, 1969-1982-ci illərdə Azərbaycana ilk rəhbərliyi dövründə Heydər Əliyevin dahiyanə idarəçilik qabiliyyəti, strateji təfəkkürü və uzaqgörənliyi sayəsində ölkəmiz heyrətamiz inkişaf yolu keçib.

Milli Məclisin sədri tədbir iştirakçılarına Heydər Əliyevin 1982-1987-ci illərdə Sov.İKP Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifələrində fəaliyyəti barədə məlumat verib. Vurğulanıb ki, Ulu Öndər Moskvada çalışdığı dövrlərdə də Azərbayca-



nın hərtərəfli inkişafı üçün qüvvə və bacarığını əsirgəməyib.

Azərbaycan müstəqilliyinin bərpasının ilk illərində böyük çətinliklərlə üzləşdiyini xatırladan parlamentin sədri 1993-cü ilin iyununda Heydər Əliyevin dövlət rəhbərliyinə qayıdışı sayəsində Azərbaycanın uçurumun bir addımlığından geri döndüyünü, itirmək üzrə olduğu siyasi və dövlət müstəqilliyini qoruyub saxlaya bildiyini deyib. Bildirilib ki, Ulu Öndər Heydər Əliyevin başladığı işləri eyni əzm və iradə ilə, daim dəyişən tarixi şəraitin tələblərinə uyğun şəkildə davam etdirən Prezident İlham Əliyevin uzaqgörən siyasəti sabit və ardıcıl yüksəlişi, yeniləşməni gündəlik həyatımızın reallığına çevirib. Cəmiyyət və dövlət həyatının bütün sahələrində əldə edilən uğurlar dünyanın diqqətini Azərbaycana cəlb edib. Yaradılmış böyük siyasi, iqtisadi, hərbi potensial Ümummilli Liderimizin ən mühüm vəsiyyətini şərəflə yerinə yetirməyə imkan verib - torpaqlarımızın 30 illik işğalına son qoyulub, ərazi bütövlüyümüz bərpa olunub.

Əminliklə vurğulanıb ki, Heydər Əliyev dühasının və zəhmətinin bəhrəsi olan müstəqil Azərbaycan dövləti daim var olacaq, Ulu Öndərin dediyi kimi, ”əbədiyyətə qədər yaşayacaqdır”.

Sonra Milli Məclisin xüsusi iclasında iştirak edən xarici ölkə parlamentləri sədrlərinin, parlamentlərin vitse-spikerlərinin, komitə sədrlərinin, parlamentlərarası dostluq qrupları rəhbərlərinin, beynəlxalq təşkilatların başçılarının çıxışları dinlənilib.



Tədbirdə Parlamentlərarası İttifaqın sədri Duarte Paçeko, Misir parlamentinin Nümayəndələr Palatasının sədri Hanaf Ali Əl Gebali, Gürcüstan Parlamentinin sədri Şalva Papuaşvili, İordaniya Nümayəndələr Palatasının sədri Əhməd Ali Safadi, Qazaxıstan Parlamenti Məclisinin sədri Yerlan Koşanov, Qırğızıstan Jokorku Keneşinin sədri cənab Nurlanbek Şakiyev, Mərakeş Nümayəndələr Palatasının sədri Rəşid Əl Alami, Serbiya Milli Assambleyasının sədri Vladimir Orliç, Cənubi Afrika Respublikası Milli Assambleyasının sədri Nosivive Mapisa-Nqakula, Tacikistan Ali Məclisi Nümayəndələr Palatasının sədri Mahmadtoir Zokirzoda, Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva, Ərəb Parlamentinin sədri Adel bin Abdul Rahman Əl Asumi, Türkdilli Dövlətlərin Parlament Assambleyasının Baş katibi Mehmet Süreyya Er, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Baş katibi Asəf Hacıyev və digərləri Qırğızıstan çıxış ediblər.

Çıxışlarda bildirilib ki, Ümummilli Lider Heydər Əliyevin yüksək liderlik keyfiyyətləri, uzaqgörənliyi sayəsində müasir Azərbaycan öz dövlət müstəqilliyini qoruyub saxlamağa və möhkəmləndirməyə nail olub. Natiqlər Ulu Öndərin Azərbaycanın tərəqqisi və inkişafında danılmaz xidmətlərindən bəhs edib, xilaskarlıq missiyasını uğurla yerinə yetirdiyini vurğulayıblar. Eyni zamanda, Azərbaycanın beynəlxalq səviyyədə tanınmasında, nüfuzunun möhkəmlənməsində Heydər Əliyevin önəmli rolunu qeyd edilib.

Qazaxıstanın Parlament Məclisinin sədri Yerlan Koşanov bildirib ki, Heydər Əliyev dühasının nəinki Azərbaycan, həmçinin bütün Türk dünyası üçün mənəvi oriyentirə çevrildiyini bildirərək deyib: ”Ulu Öndər Heydər Əliyev Qazaxıstanda xalqlarımız arasında səmimi qardaşlıq münasibətlərinin qurulmasına çalışması ilə tanınır. Heydər Əliyev əlaqələri-



mizin əbədi və möhkəm olması üçün böyük səylər göstərib. Azərbaycan Türk dünyasının mərkəzlərindən biridir. Türk xalqlarının birləşməsində Heydər Əliyevin böyük rolu olub. Türk Dövlətləri Təşkilatının əsası da Naxçıvanda qoyulub. Bu fakt özlüyündə dərin rəmzi mənaya malikdir”.

Vurğulanıb ki, Azərbaycanın müstəqilliyinin dönməz və əbədi olmasında, iqtisadi potensialının gücləndirilməsində, ölkənin regionda və dünyada nüfuzunun artmasında Heydər Əliyevin müdrik siyasəti önəmli rol oynayıb. İclasda Heydər Əliyevin bütün türk dünyasının birliyi, həmrəyliyi naminə gördüyü işlər, irəli sürdüyü təşəbbüslər, türk dünyasının beynəlxalq nüfuzunun güclənməsinə verdiyi böyük töhfələr qeyd olunub. Onun siyasi kursunun mühüm istiqamətlərindən biri kimi türk dövlətləri ilə əməkdaşlığın inkişafı Azərbaycanın xarici siyasətində mühüm yer tutur.

İclas iştirakçıları müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev ideyalarının ölkə Prezidenti İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirildiyini vurğulayıblar. Bildirilib ki, hazırda Azərbaycan mötəbər beynəlxalq təşkilatlarda da dünya ölkələri ilə əməkdaşlığını uğurla həyata keçirir. Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan səmərəli fəaliyyət göstərir, bir çox mühüm təşəbbüslərlə çıxış edir.

Çıxışlarda dövlətlərarası əlaqələrin inkişafında parlamentlər səviyyəsində əməkdaşlığın mühüm əhəmiyyət kəsb etdiyi qeyd olunub.

Sonda Sahibə Qafarova bildirib ki, Ulu Öndər Heydər Əliyev Azərbaycan naminə yorulmaz fəaliyyəti ilə hələ sağlığında xalqımızın dərin hörmət və məhəbbətini qazanaraq, onun qəlbində özünə möhtəşəm abidə ucaldıb. Onun ideyaları bugünkü və gələcək nəsillərin əməllərində yaşayır və daim yaşayacaqdır. Qeyd edək ki, xüsusi iclasa ümumilikdə 228 nəfər, o cümlədən 12 parlament sədri, 15 parlament sədrinin müavini, 57 parlament üzvü, 4 beynəlxalq parlament təşkilatının, eləcə də diplomatik korpusun təmsilçiləri qatılıblar.

# Azərbaycan ümumavropa qaz təchizatçısıdır

## PREZİDENT İLHAM ƏLİYEV: "Enerji təhlükəsizliyi ilə bağlı planlarımızı həmişə gələcəyi nəzərə alaraq tənzimləmişik"

**Azərbaycan Prezidenti İlham Əliyev Şuşada keçirilən ”Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda konfransda çıxışında bildirib: ”Enerji təhlükəsizliyinə gəlincə, biz həmişə planlarımızı gələcəyi nəzərə alaraq tənzimləmişik, çünki mənim atamın baxışı belə olub”.**

Dövlətimizin başçısı deyib: ”Bakı-Tbilisi-Ceyhanın tutumu 50 milyon tondur. Bu, heç vaxt belə olmayıb. Lakin indi bizə Mərkəzi Asiyadan, Rusiyadan neft nəql olunur, bu mənbələrdən daha çox neft nəql olunacaq. Bizim ”Şahdəniz”də kondensatımız var. Ümidvaram ki, bu il ”Abşeron”dan və bir çox başqa yataqlardan kondensat hasil edəcəyik. Beləliklə, kəmərdə hətta bizim gözlədiyimizdən daha çox kondensat olacaq. Gün gələcək Bakı-Tbilisi-Ceyhan Azərbaycandan olan neft və kondensat, həmçinin Mərkəzi Asiyadan neft sayəsində tam gücü ilə işləyəcək”.

### Aİ-NİN ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARI AZƏRBAYCANI ”ÜMUMAVROPA QAZ TƏCHİZATÇISI” ADLANDIRIB











”Uzun illər bundan əvvəl ”Azərbaycanın nefti yoxdur”, ”Azərbaycanın qazı yoxdur” deyirlər. Avropa İttifaqının enerji məsələləri üzrə komissarı xanım Simson Azərbaycanı ”ümumavropa qaz təchizatçısı” adlandırıb”. Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Şuşada keçirilən ”Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda konfransda çıxışında qeyd edib.

Dövlətimizin başçısı deyib: ”Bu yaxınlarda mən söylədim ki, biz maksimum bir neçə ilə 10 ölkəni, o cümlədən 8 Avropa ölkəsini qazla təchiz edəcəyik. Beləliklə, bu, onu göstərir ki, bizim layihələri təkcə kommersiya nöqteyi-nəzərindən deyil, həm də strateji nöqteyi-nəzərdən planlaşdırmağa ehtiyacımız var. Bu kompleksi davam etdirməyə ehtiyacımız var”.

### BİZ AVRASİYANIN ENERJİ XƏRİTƏSİNİ YENİDƏN CIZIRIQ

TƏHLİL

Bəli, bu gün həqiqətən də Azərbaycanın adı qaz ixrac edən ölkələr sırasında çəkilir və tərəfdaş ölkələrin sayı getdikcə artır. Bunun əsas səbəblərindən biri də Azərbaycanın etibarlı tərəfdaş funksiyasını uğurla yerinə yetirməsidir. Bu ulu öndər Heydər Əliyevin əzmkarlığı və İlham Əliyevin qətiyyəti sayəsində reallaşıb.

Dövlətimizin başçısı İlham Əliyev Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda ”Qarabağ” yatağının dayaq blokunun dənizə yola salınması mərasimi çərçivəsində Azərbaycan Televiziyasına müsahibəsində bir daha bu reallığı diqqətə çatdırmışdır ki, ”Azəri-Çıraq-Günəşli” yatağının təcrübəsi göstərir ki, ”Qarabağ” neft yatağı daha böyük potensiala malik ola bilər.

Düz 32 ilə yaxın müstəqillik tarixinə malik olan Azərbaycanın uğurları ulu öndər Heydər Əliyevin ”Dünya təcrübəsi göstərir ki, heç bir ölkə beynəlxalq əməkdaşlıq, təcrübə mübadiləsi olmadan, səylər və ehtiyatlar birləşdirilmədən təkbaşına iqtisadi tərəqqiyə nail ola bilməz” fikirlərinin təsdiqi olmaqla yanaşı, eyni zamanda, bu gerçəkliyi də şərtləndirir ki, ölkəmiz regional əməkdaşlıqdan beynəlxalq əməkdaşlığa doğru addımlamağı əsas hədəf kimi qarşıya məqsəd qoyaraq bu istiqamətdə əhəmiyyətli layihələrə imza atır. Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyada bir çox transmilli layihələrin təşəbbüskarı və uğurlu icraçısı, etibarlı tərəfdaş kimi tanınır. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Azərbaycan qazını Avropaya çatdıran Cənub Qaz Dəhlizi, TAP layihəsi, Avropanı Asiya ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu, Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizləri ölkəmizi energetika və nəqliyyat mərkəzinə çevirib.

Dövlətimizin başçısının yeni enerji siyasətinin digər mühüm komponenti isə odur ki, Prezident İlham Əliyev Avropaya digər enerji körpüsünü də salır. Azərbaycan Avropanın mühüm elektrik enerjisi, əsasən, yaşıl enerji təchizatçısına çevrilməyi planlaşdırır. Azərbaycanın nəhəng bərpaolunan enerji potensialı ölkəmizin bu sahədə də həlledici rol oynamasına imkan verir.

Bir sözlə, Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstana işgüzar səfəri bir həqiqəti yenidən təsdiqlədi ki, Azərbaycan beynəlxalq arenanın nüfuzuna və gücünə görə birmənalı olaraq qəbul olunan, öz sözünü açıq şəkildə ifadə edən dövlətlərdəndir. Və Azərbaycan Prezidenti İlham Əliyev bu gün dünya liderləri sırasında uğurlu siyasəti və qətiyyəti ilə Azərbaycan özünün siyasi və iqtisadi baxımdan yüksəliş dövrünü yaşayır və Azərbaycan əməkdaşlığın coğrafiyasını genişləndirməklə etibarlı tərəfdaş kimi nüfuzunu artırır, dünya birliyinin layiqli üzvü kimi söz sahibinə malik olduğunu təsdiqləyir. Çünki, Azərbaycan Prezidenti İlham Əliyevin həmişə olduğu kimi, yenə də daha irəli baxmağa üstünlük verir və Sofiyada bəyan etdiyi kimi: ”Avropa İttifaqına üzv dövlətlərin üçdəbiri Azərbaycanın strateji tərəfdaşıdır və bu tərəfdaşlığın çox güclü gələcəyi var”.

***RƏFİQƏ KAMALQIZI***






# Ərdoğanın ikinci tur zəfəri uzaqda deyil!

## Seçki sorğuları keçirən bir sıra exit-poll təşkilatlarının ictimaiyyətə qeyri-dəqiq proqnozlar verməsinin səbəbləri məlum oldu

***Mayın 14-də qardaş Türkiyədə keçirilən prezident və parlament seçkilərində bir sıra diqqətçəkən məqamlar oldu. O da məlumdur ki, seçkilər 2-ci tura qaldı. Lakin buna qədər seçkilərdə exit-poll kampaniyaları keçirən müxtəlif sosioloji sorğu mərkəzləri bir-birlərindən fərqli nəticələr çıxardılar.***

### Sosioloji sorğu keçirən təşkilatlar hansı səbəbdən səhvlərə yol veriblər?

Xüsusilə, hakim Ədalət və İnkişaf Partiyasının namizədi Rəcəb Tayyib Ərdoğanla CHP lideri Kemal Kılıçdaroğlu arasındakı mübarizədə isə CHP-nin seçkilərdə bir çox pozuntuları nəzərlərdən yayınmadı.

Bəs sosioloji sorğu keçirən təşkilatlar hansı səbəbdən səhvlərə yol veriblər?

Belə ki, həmin təşkilatlar istər yerli, istərsə də xarici ictimaiyyətə yalan nəticələr təqdim etməklə, guya Kılıçdaroğlunun qalib gəldiyini bəyan edirdilər. Maraqlıdır ki, 18 exit-poll təşkilatının aprel-may aylarında keçirdikləri sorğularda müxalifətin vahid namizədi Kemal Kılıçdaroğlu səslərin 48,9, Rəcəb Tayyib Ərdoğan isə 45,8 %-ni qazanmışdılar.

Beləliklə, Kılıçdaroğlu 18 sorğunun 15-də öndə göstərilib. Ərdoğan isə Optimar, SONAR və HBS-nin nəticələrinə görə qalib təqdim olunurdu.

### Bu kampaniyaların əksər çoxluğu gerçəkliyi əks etdirmədi

Daha bir düşündürücü nüans: məsələ ondadır ki, 7 seçki kampaniyaları seçkilərin 1-ci turda, 11-i isə 2-ci turda başa çatacağı barədə proqnozlar verdilər və yalnız Optimar təşkilatı Ərdoğanın birinci turda qalib gələcəyini proqnozlaşdırdı.

6 seçki kampaniyaları- PIAR, ALF, Artıbir, MAK, Eurasia və ORC isə CHP liderinin ilk turdaca qalib gələcəyini ictimailəşdirdilər. Ancaq göründüyü kimi, bu kampaniyaların əksər çoxluğu gerçəkliyi əks etdirmədi. Bəs belə bir qeyri-dəqiqliyin səbəbi nə idi?

Bir sıra seçki ekspertlərinin gəldikləri qənaətləri görə, sorğuların nəticələrinin üst-üstə düşməməsi ilk dəfə baş vermir. Belə ki, əvvəlki seçkilərdə də aparılan kampaniyalar səhv nəticələrlə yaddaşlarda qalıb. Mütəxəssislər bunu bir sıra fakorlarla izah edirlər.

### Bəzi exit-pollar sifarişlə işləyib yalan proqnozlar veriblər

Misal üçün, versiyalar var ki, bir çox exit-poll-lar sorğuların nəticələrini sifarişlər əsasında göstərirlər. Daha dəqiq desək, onların bu və ya digər siyasi institutlara bağlılıqları da bu məsələdə rol alır.

Lakin ciddi və obyektiv səbəblər də mövcuddur. Yəni bütün sorğu təşkilatlarının da partiyalara bağlı, yaxud sifarişlə fəaliyyətlərini iddia etmək doğru olmazdı.

Seçki mütəxəssisləri bildirirlər ki, birinci versiya digər müxalifətçi namizəd - Muharrem İncənin öz namizədliyini geri götürməsinə qədərki sorğularla bağlıdır.

Baxmayaraq bu faktor elə də mühüm əhəmiyyət kəsb etmir, amma ehtimal etmək mümkündür ki, İncənin namizədliyini geri götürməsi az-çox nəticələrə təsirini göstərib.

### Nəyə görə ən iri regionlardan olan Anadolu bölgəsi və əyalətlər sorğulardan kənarda qalıblar?

İkinci səbəb isə budur ki, sorğular, əsasən, Türkiyənin iri şəhər və rayonlarında keçirilib. Yəni, sosial sorğu kampaniyaları əyalətlərdə, eləcə də iç Anadoluda keçirilməyib. Bu məqam isə əlbəttə ki, sorğuların nəticələrində əks olunmayıb. Nəzərə alsaq ki, Türkiyənin əsas çoxluq əhalisi, yəni Anadolu bölgəsi həm də ənənəvi milli koloritlərə bağlıdır, həmçinin, ən iri regiondur, bu zaman həmin bölgənin Ərdoğana səs verdiyi kifayət qədər bəlli olur. Bu baxımdan, Ərdoğanın ikinci turda Kılıçdaroğluya qalib gəlməsi ən mümkün proqnozlar silsiləsindəndir. Üstəlik, iri şəhərlərdə CHP tərəfdarlarının çox olmasına baxmayaraq, AK Partiyasının da tərəfdarlarının az olmadığını qeyd etmək vacibdir. Mayın 28-də keçiriləcək ikinci turda isə qalibin, məhz Ərdoğan olacağı artıq heç bir şübhə doğurmur.

***Afət Tahirqızı***

# Ulu Öndərin həyat və fəaliyyəti Azərbaycan gəncliyi üçün nümunədir

## YAP Veteranlar Şurasının üzvlərinin gənclərlə növbəti görüşü keçirilib

**Mayın 16-da "Heydər Əliyev İli" çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının üzvlərinin gənclərlə növbəti görüşü keçirilib. Abşeron rayon Heydər Əliyev Mərkəzində keçirilən görüşdə YAP Abşeron rayon təşkilatının üzvü olan fəal gənclər iştirak ediblər. Əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.**

Tədbirdə Dövlət Himni səsləndirilib. Ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbiri giriş sözü ilə açan YAP Abşeron rayon təşkilatının sədri Abbas Əliyev ulu öndər Heydər Əliyevin xalqımız qarşısında tarixi xidmətlərindən bəhs edib. Qeyd edib ki, Azərbaycanın inkişaf strategiyasının müəllifi ümummilli liderimiz Heydər Əliyevdir. O, ulu öndər Heydər Əliyevin siyasi varisi olan Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində Azərbaycanın qüdrətli və qalib ölkəyə çevrildiyini söyləyib.

Görüşdə çıxış edən YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə bildirib ki, ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr dövlətçiliyimizin tarixi mərhələlərini təşkil edib: "Heydər Əliyevin hakimiyyətə birinci gəlişi xalqın həyatında dönüş nöqtəsi, çiçəklənmə, milli oyanış dövrü oldu. 1993-cü ildə Ulu Öndər hakimiyyətə qayıdışı ilə xilaskarlıq missiyasını yerinə yetirdi, ölkəmiz məhv olmaq təhlükəsindən qurtardı. Ümummilli Lider Heydər Əliyevin müasir və müstəqil Azərbaycana rəhbərliyinin əsas nəticəsi ondan ibarətdir ki, dağılmaq ərəfəsində olan ölkəmiz dinamik inkişaf edən bir ölkəyə çevrilib. Bu heç də asan başa gəlməyib. Azərbaycanı inkişaf yoluna yönəltmək üçün böyük zəhmət sərf olunub. Odur ki, biz Heydər Əliyevin qurucusu olduğu bugünkü Azərbaycanı daim qorumalıyıq".

Ulu Öndərin müstəsna xidmətlərinin hələ uzun illər tədqiqatçıların diqqət mərkəzində olacağını qeyd edən A.Rəhimzadənin sözlərinə görə, müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir. O,







ulu öndər Heydər Əliyevin zəngin irsinin hər zaman öyrəniləcəyini vurğulayıb.

Heydər Əliyevin uzaqgörən şəxsiyyət olduğunu deyən YAP Veteranlar Şurasının sədri qeyd edib ki, bu gün Prezident İlham Əliyev Heydər Əliyev yolunu uğurla davam etdirir: "Ulu öndər Heydər Əliyev hər zaman Azərbaycan gəncliyinə qayğı ilə yanaşıb, gənclərin inkişafını xüsusi diqqət mərkəzində saxlayıb. Gənclərimiz Heydər Əliyevin zəngin irsini dərindən öyrənməli, Ulu Öndərin ideyalarına həmişə sadiq olmalıdırlar".

YAP Veteranlar Şurasının üzvü, AMEA-nın Riyaziyyat və Mexanika İnstitununun direktoru Misir Mərdanov ölkəmizin gələcək inkişafında gənclərin rolunu vurğulayıb. O qeyd edib ki, gənclər ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yolla getməlidir. Çünki bu yolun alternativi yoxdur. M.Mərdanov bildirib ki, Ümummilli Lider bugünkü müstəqil Azərbaycanın banisidir. Ulu Öndərimizin həyatı daim Azərbaycan naminə mübarizələrdə keçib və qalib gəlib. Ona görə də Ulu Öndərimizin həyat və fəaliyyəti gənclərimiz üçün nümunədir. Misir Mərdanov ulu öndər Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafına xüsusi diqqətlə yanaşmasından ətraflı bəhs edib.

YAP Veteranlar Şurasının üzvü deyib ki, Heydər Əliyevin xalqımızın qarşısında ən böyük xidmətlərindən biri cənab İlham Əliyev kimi lider yetişdirməsi olub. Prezident İlham Əliyev Azərbaycanı inkişaf etdirməklə, torpaqlarımızı işğaldan azad etməklə xalqımıza möhtəşəm nailiyyətlər qazandırıb. Daha sonra tədbir diskussiya şəraitində davam edib, gənclərin sualları cavablandırılıb.



# Azad torpaqlarımız: Hadruta yeni həyat gəlir!

**Hadrut- təbiətin iki çayın arasına sığdırdığı bu qədim Azərbaycan torpağı adının mənasından və coğrafiyasından da göründüyü kimi, həm də təbiətin bütün gözəlliklərini özündə ehtiva edir. Bu yurd yeri zaman-zaman milli ənənələrimizi qorumuş, xalçaçılıq, baramaçılığı, ticarəti və müxtəlif sənətkarlıq növlərini, xalqımıza məxsus əkinçilik mədəniyyətini yaşatmışdır.**

Hadrut da 90-cı illərdə digər torpaqlarımız kimi erməni işğalçılarının tamahının qurbanı olmuşdur. 30 ilə yaxın idi ki, bu qədim yurd yerimiz azadlığını gözləyirdi. Sakinlərinə qovuşmaq, onların doğma nəfəsini hiss etmək üçün gözləri yollara dikilmişdi.

2020-ci ilin sentyabrında başlayıb 44 gün davam edən Vətən müharibəsi digər işğal altında olan torpaqlarımız kimi, Hadrutu da azadlığına qovuşdurdu. Bu gün Hadrutda Azərbaycan bayrağı dalğalanır və bu bayrağın dalğası altında bu yurd yerimizə yeni həyat gəlməkdədir. Burada aparılan bərpa işləri Hadruta yeni həyatın verilməsi ilə yanaşı, həm də sakinlərinin tezliklə ata-baba ocaqlarına qayıtmasına xidmət edir.

## Hadruta qısa səyahət...

Dəqiq salınma vaxtı məlum olmayan qəsəbə həm qədim, həm də orta əsr dövrünə aid abidələrlə zəngin olub. Qəsəbənin adı 1727-ci ildə Osmanlı qaynaqlarında Dizaq nayihəsinin Hadrut kəndi olaraq keçir. Çar dövründə Hadrut kəndi Yelizavetbol quberniyasının Cəbrayıl qəzasının tərkibində idi. Bura 1847-ci ildən Poltava atlı kazak alayının qərargahı idi.

1872-ci ildə Moskvada keçirilmiş Politexnik sərgisində iki sakininin təqdim etdiyi xalçalara görə gümüş mükafata layiq görülməsi, 1877-ci ildən burada Zurabov, Muradov və şəriklərinə məxsus baramaaçma karxanasının fəaliyyət göstərməsi Hadrutun inkişaf etmiş bir ərazi olduğunu şərtləndirir.

Əhali bağçılıq, bostançılıq, taxılçılıq, maldarlıq, ticarət və sənətlə məşğul idi. Hadrutda o dövrdə iki bazar, kilsə, ikiillik məktəb, birillik prixod məktəbi, zemstvo əczaxanası və teleqraf stansiyası fəaliyyət göstərirdi. 1923-cü ildə Hadrut kəndi Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin (hazırda bu muxtariyyət ləğv olunub) tərkibinə verilmişdir, 1930-cu ildə isə yeni yaradılmış Dizaq rayonunun inzibati mərkəzi seçilmişdir. 1939-cu ildə həmin rayon öz mərkəzinin adına uyğun olaraq Hadrut rayonu adlandırılmışdır. 1963-cü ildə Hadruta şəhər tipli qəsəbə statusu verilmişdir. Qəsəbədə üzüm emalı zavodu, xalça sexi, musiqi və ümumtəhsil məktəbləri, mədəniyyət evi, mərkəzi kitabxana və rayon xəstəxanası yerləşirdi.

Bəstəkar Üzeyir Hacıbəyov gənc yaşlarında Hadrutda müəllimlik etmişdir. 1992-ci ildə Hadrut rayonu ləğv olunub Xocavənd rayonunun tərkibinə daxil edilmiş, 2 oktyabr 1992-ci ildə -Birinci Vətən müharibəsi zamanı separatçı erməni qoşunları Hadrutu ələ keçirmişdir.

## Beləliklə 30 ilə yaxın...

Ermənilərin havadarlarından aldıqları dəstəklə digər torpaqlarımız kimi, Hadrut da işğal olunmuşdu. Hadrut sakinləri də minilliklər boyu diş-dırnaqları ilə qurub-yaratdıqları ev-eşiklərini, həyat-bacalarını, mal-heyvanlarını, əkin sahələrini bar üstündə qoyub düşmən tərəfindən silah gücü ilə doğma ocaqlarını tərk etmişlər. Hadrut sakinləri 30 ilə yaxın idi ki, yurd həsrəti ilə, bir gün doğma el-obalarına qayıtmaq ümidi ilə yaşayırdı. Hadrut sadəcə onların yuxularının Hadrutu olmuşdu. 30 ilə yaxın idi ki, yurd həsrəti sinələrinə dağ çəkirdi...

Erməni adlı xislətsiz, nankor isə torpaqlarımızı talan edir, yeraltı-yerüstü sərvətlərimizi daşıyıb satır, abidələrimizi, sosial obyektləri dağıdır, illərlə insanların min bir arzu ilə özlərinə qurduqları yuvaları məhz edir, daşı daş üstündə qoymurdu.

Bütün bunları bilirdi hadrutlular. O səbəbdən bağırları çatlayırdı. Yurdlarında qoyub gəldikləri hər şey onların doğması idi, əllərinin zəhməti idi, reallaşan, lakin qısaömürlü arzuları idi.

Lakin o gün gələcəkdi, torpaqlarımız işğaldan azad olunacaqdı. Mərdliyi, igidliyi, qəhramanlığı ilə tarixə imzasını atan azərbaycanlılar torpaqlarını erməni işğalı altında qoymayacaqdı ki... Lakin bunun zamanı çatmalı idi, buna hazır olmalı idik. Olduqda. 2020-ci ildə Ali Baş Komandanın ətrafında birləşən xalq müzəffər sərkərdənin rəhbərliyi ilə torpaqlarımızı bir-bir azad etdi. Üçrəngli bayrağımız azad ellərə sancıldı. Düşmən qovulub torpaqlarımızdan çıxarıldı. Hadrut da azadlığına qovuşdu. Bu xəbər hadrutluların sevincinə, xoşbəxtcəsinə nəfəs almasına səbəb oldu.

Hələ müharibə bitməmişdi, dövlətimizin başçısının tapşırığına əsasən artıq azad edilmiş ərazilərimizdə bərpa işlərinə başlanmışdı. Hadrut müharibənin ilk ongünlüyündə azad edildiyi üçün burada da müəyyən işlərə başlanılmışdı. Bu gün isə Hadruta yeni həyat bəxş olunur. Hadrut hadrutluların doğma yurdlarına qayıtmaları üçün hazırlanır. Mayın 5-də dövlətimizin başçısı cənab İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Xocavənd rayonuna səfərləri çərçivəsində gördüklərimiz bunları söyləməyə imkan verir.

## Hadrut qəsəbəsində 360 şagird yerlik məktəb tikilir

Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən hərbi təcavüzü nəticəsində işğal olunmuş rayonların təhsil infrastrukturu da tamamilə dağıdılıb. İşğaldan azad edilən ərazilərdə dağıdılan təhsil infrastrukturunun bərpası istiqamətində Prezident İlham Əliyevin müvafiq sərəncam və tapşırıqları ilə hazırda mühüm işlər görülür. Hadrutda məktəb binasının tikintisi də bu işlərin tərkib hissəsidir.

Dövlətimizin başçısı və birinci xanım Hadruta səfərləri zamanı qəsəbədə 360 şagird yerlik tam orta məktəbin bərpa layihəsi ilə tanış olublar.

Məlumat verilib ki, bərpa olunacaq məktəb 1,9 hektar ərazidə yerləşir. Əsaslı təmir və yenidənqurma işlərindən sonra məktəbdə 15 sinif otağı, idman və akt zalları, yeməkxana, kitabxana, hərbi dərs otağı, 3 laboratoriya və 2 texnologiya otağı, informatika otağı olacaq. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları müasir avadanlıq və ləvazimatlarla təchiz ediləcək.

## 28 fərdi evdən ibarət ilk yaşayış məhəlləsi

Azad torpaqlarımıza sakinlərinin qayıtması üçün ilkin olaraq evlərin tikilməsi, lazımi şəraitin yaradılması vacib amillərdəndir. Vətən müharibəsində şanlı Qələbə müjdəsini Azərbaycan xalqına çatdıran tarixi müraciətində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev deyirdi: "Məcburi köçkünlər yaxşı bilirlər ki, onların öz dədə-baba torpaqlarına qayıtması üçün biz əlimizdən gələni edəcəyik, işğaldan azad edilmiş bu torpaqlarıyenidən quracağıq".

Dövlətimizin başçısı və birinci xanım Hadrut qəsəbəsində salınacaq ilk yaşayış məhəlləsinin təməlini qoyarkən bu dəyərli fikirləri xatırladıq və həqiqətən də Prezidentimizin nəyi nə zaman, nə vaxt edəcəyini müəyyənləşdirdiyinin bir daha şahidi olduq. Hadruta qayıtmaq üçün hadrutlular üçün salınan məhəllə də artıq qısa zamanda bu arzuların reallaşacağını göstərir.

Dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verilərək bildirilib ki, ilk yaşayış məhəlləsi 28 fərdi evdən ibarət olacaq. Tikiləcək evlərin ikiotaqlı, üçotaqlı, dördotaqlı və beşotaqlı olması nəzərdə tutulur. Mənzillərin sahəsi 70-120 kvadratmetr təşkil edəcək. Qeyd edək ki, Hadrut qəsəbəsində özəl sektor üçün investisiya zonasında nəzərdə tutulan evlərin tikintisi "PMD Group" MMC tərəfindən aparılır.






## Hadrutda turizmin inkişafı nəzərdə tutulur

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Hadrutda qəsəbənin turizm inkişaf konsepsiyası barədə məlumat verilib, Dövlət Turizm Agentliyi tərəfindən ilk növbədə qəsəbənin tarixi hissəsində mərkəzi məhəllənin bərpasının və abadlaşdırılmasının nəzərdə tutulduğu bildirilib.

Qeyd olunub ki, Hadrutun tarixi hissəsində bərpa və konservasiya işləri çərçivəsində ilkin dövrdə Qafqaz Albaniyasının tarixi-mədəni irsinə aid məbədin, onun yanındakı üç tikilinin bərpası, həmin ərazinin abadlaşdırılması planlaşdırılır. Məhz bu hissədə bərpa və konservasiya işləri gələcəkdə Hadrutda aparılacaq tarixi tikililərin bərpa işləri üçün ilkin təcrübə olacaq və digər işlər bu təcrübəyə əsaslanaraq aparılacaq.

Xristian məbədi Hadrutun tarixi hissəsinin əsas memarlıq abidəsidir. Qafqaz Albaniyası dövründə həmin məbəd müxtəlif dövrlərdə bir neçə dəfə bərpa edilib. Məbəd sonuncu dəfə 1621-ci ildə bərpa olunub. Bu məbədin divarlarında daha qədim dövrdə tikilmiş abidənin daşlarından istifadə edilib. Buna görə də Qafqaz Albaniyası dövrünə aid məbəd və onun ətrafında Dövlət Turizm Agentliyi tərəfindən bərpa və abadlaşdırma işləri görülməzdən əvvəl burada elmi-tədqiqat və arxeoloji qazıntıların aparılması nəzərdə tutulur. Çünki işğal dövründə Hadrutda olan bir sıra abidələr kimi, bu məbədin də tarixi mənşəyinə ermənilər tərəfindən müdaxilələr edilib.

Yerli əhəmiyyətli memarlıq abidəsi kimi rəsmi olaraq dövlət mühafizəsinə götürülən məbəd kompleksinin ərazisində onlarla qəbir daşı yerləşir. Bununla əlaqədar ərazinin arxeoloji cəhətdən tədqiq edilməsinə ehtiyac yaranıb.

Hadrutun mərkəzi hissəsində yerləşən tarixi mülkün bərpa edilərək, Turizm Məlumat Mərkəzi kimi fəaliyyət göstərməsi də nəzərdə tutulur. Mərkəzdə Hadruta gələn turist qruplarına qəsəbə və ətraf kəndlərdəki turizm obyektləri haqqında məlumat veriləcək. Turizm Məlumat Mərkəzi iki hissədən ibarət olacaq. Birinci hissə turistlərin qəbulu sahəsi, ikinci hissə isə turizm işçiləri üçün ofis kimi nəzərdə tutulur.

## Hadrut bir mərkəzdən idarə olunacaq

Hadrut qəsəbəsində həm də inzibati mərkəzin tikintisi nəzərdə tutulur. İnzibati zonanın ümumi sahəsi 4,2 hektardır. Buraya inzibati bina, bələdiyyə binası, mədəniyyət mərkəzi və infrastruktur qurumlarının ofislərinin binaları daxildir ki, bu da Hadrut qəsəbə sakinlərinin yaranacaq hər hansı bir probleminin vaxt itirmədən həllinə xidmət edəcək.





Qəsəbənin inzibati ərazisinə bütün yol infrastrukturunun, kommunikasiya xətlərinin, o cümlədən işıq, rabitə və yüksəksürətli internetin çəkilməsi planlaşdırılır. Yol və kommunikasiya xətlərinin ümumi uzunluğu 1100 metr olacaq. Hadrut qəsəbəsinin inzibati ərazisinin tikintisinin 2024-cü ilin martında başa çatdırılması planlaşdırılır. Dövlətimizin başçısı inzibati mərkəzin təməlini qoyub.

## Şükürbəyli-Cəbrayıl-Hadrutdan 20-yə yaxın yaşayış məntəqəsinə şaxələnən yollar

Torpaqlarımız kimi, onları bir-biri ilə birləşdirən yollar da 30 ilə yaxın idi ki, doğmalarının addım səslərini gözləyirdi. Dağıdılmış, məhv edilmiş cığırları, itmiş yolları yenidən doğmalarını ocaqlarına daşımaq üçün darıxmışdı sanki...

Yol mədəniyyətdir. Hər hansı yerin inkişafını göstərən birinci amil, başlıca infrastrukturdur. Mayın 5-də dövlətimizin başçısının açılışında iştirak etdiyi Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolunun 8,2 kilometrlik hissəsi də bölgə üçün xüsusi əhəmiyyətə malikdir. Bu yol Azərbaycan Prezidentinin 2021-ci il 29 aprel tarixli Sərəncamına əsasən inşa olunur.

Dövlətimizin başçısına görülən işlər barədə məlumat verilərək bldirilib ki, uzunluğu 42 kilometr olan köhnə yol 2,3 kilometr qısaldılaraq 39,7 kilometrlik yeni yolla əvəzlənib. Yolun hərəkət hissəsinin eni 14,5 metr, torpaq yatağının eni isə 21,5 metrdir.

Dövlətimizin başçısının tapşırığına əsasən, Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınaraq dörd hərəkət zolaqlı olmaqla birinci texniki dərəcəyə uyğun inşa edilib. Yolun üzərindəki 6 körpünün tikintisi başa çatıb. Yol boyunca 18 avtobus dayanacağı quraşdırılıb.

Yeni avtomobil yolu işğaldan azad edilmiş Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindən keçir. Avtomobil yolu Hadrut qəsəbəsi və Cəbrayıl şəhəri də daxil olmaqla həmin rayonların 20-yə yaxın yaşayış məntəqəsini əhatə edəcək.

## 2021-ci ildə təməli qoyuldu, 2023-cü ildə istifadəyə verildi

"Hadrut" qovşaq yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzinin təməli 2021-ci il oktyabrın 9-da-Hadrutun işğaldan azad olunduğu gün Prezident İlham Əliyev tərəfindən qoyulmuşdu, mayın 5-də isə dövlətimizin başçısının iştirakı ilə istifadəyə verildi.

Məlumat verilib ki, "Şükürbəyli", "Hadrut" və "Şuşa" yarımstansiyaları arasında yaradılan 35 kV-luq dairəvi elektrik təchizat sxeminə daxil olan 35/0,4 kV-luq 2x1600 kVA gücündə yeni "Hadrut" qovşaq yarımstansiyası Hadrut qəsəbəsində qurulacaq müxtəlif təyinatlı infrastrukturun elektrik enerjisinə tələbatını ödəyəcək. Həmçinin yeni qovşaq yarımstansiyası Xocavənd rayonunun bir hissəsinin, Şuşa və ətraf ərazilərin elektrik təchizatı etibarlılığını və dayanıqlılığını təmin edəcək.

Yarımstansiyada Rəqəmsal Elektrik Şəbəkələrinin İdarəolunması Mərkəzinin yaradılması elektrik enerjisinin paylanması prosesinə fasiləsiz nəzarətin təmin edilməsinə, enerji səmərəliliyinə, elektrik enerjisinin fasiləsizliyinə və keyfiyyətinin artırılmasına zəmin yaradacaq. Zərurət yaranarsa, "Hadrut" qovşaq yarımstansiyası vasitəsilə Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarını da elektrik enerjisi ilə təchiz etmək mümkün olacaq.

Qeyd olunub ki, Təlim-Tədris Kompleksində Beynəlxalq tədbirlərin keçirilməsi üçün bütün zəruri şərait nəzərə alınıb. Kompleksin Regional Tədris Mərkəzində yerli və xarici təlimçilərin iştirakı ilə elektroenergetika sahəsi üzrə ixtisaslı kadrların hazırlığı, bərpaolunan enerji mənbələrinin tətbiq və istismar qaydaları, peşə vərdişlərinin əldə edilməsi, real iş şəraitində təlimlər və ustalıq yarışlarının təşkili nəzərdə tutulur. Mərkəz təlim-tədris zalından və təlim poliqonundan ibarətdir. Tədris zalı 35/0,4 kV-luq müasir şəbəkə modelinin, 35 və 0,4 kV-luq fiber-optik kabellərin, kompozit şüşə-lifli dayaqların tətbiq sahələri, perspektiv inkişafı və üstünlüklərinin əyani şəkildə tədqim edilməsi üçün nəzərdə tutulub. Burada, həmçinin xüsusi dayaqlarda şəbəkədə istifadə edilən element və ləvazimatlar qurulub.

İşğaldan azad edilmiş ərazilərdə Yaşıl enerji mənbələrinin (işlək günəş və külək enerji qurğuları) tətbiqinə dair real işlək model də tərtib edilib, həm personalın, həm də gələcəkdə fəal istehlakçıların maarifləndirilməsi təlimlərində istifadəsi nəzərdə tutulub.

## Hadrut yeni həyatın astanasında

Bütün bunları seyr etdikcə ürəyimiz dağa dönür. Hansı ki, ürəyimizə 30 il dağ çəkilmişdi. Düşmən ərazilərimizdə daşı daş üstündə qoymamışdı. Tariximizin, mədəniyyətimizin məhvi üçün min bir oyuna, xəyanətə əl atmışdı. Bu baxımdan azad edilən torpaqlarımızn hər birində gördüklərimizi böyük sevinc və xoşbəxtliklə qarşılayırıq. Yeni həyatın astanasında olan Hadrut kimi...

Budur, Hadrutun üzü gülür. Onu azad edən ordunun müzəffər sərkərdəsi bu gün də qədim yurd yerinin bərpasını, yaxın gələcəkdə sakinlərinin ona qovuşmasını təmin edir.

Baxdıqca qürur duyuruq. Qürur duyuruq ki, torpağımızın hər bir qarışını sevən, qoruyan, əzizləyən dövlət başçımız var. Axı biz bu torpaqları 90-cı illərdə satanları da görmüşdük. Prezidentimiz onların səhvini düzəltməklə yanaşı, həm də bu xalqın nümayəndələrini öz doğma ocaqlarına qovuşdurmağa, ərazi bütövlüyümüzün təminatına çalışır. Bu işlər asan işlər deyil. Böyük zəhmətin, məsuliyyətin, bacarıq və qabiliyyətin, bir də Vətən sevgisinin bəhrələridir. Bax, qürurу da məhz buna görə duyuruq...

***Mətanət Məmmədova***



# Yetişən zaman və iqtisadi güc: Laçın quruculuq meydanına çevrilir




İşğaldan azad edilmiş bütün ərazilərimizdə, o cümlədən Laçın rayonunda abadlıq-quruculuq işləri sürətlə davam etdirilir. Yeni yollar salınır, infrastruktur qurulur, kəndlər, qəsəbələr bərpa edilir. Planlı və sistemli şəkildə görülən bütün işlər bilavasitə dövlətimizin başçısı cənab İlham Əliyevin nəzarəti altındadır. Rayona səfəri zamanı Prezidentimiz təməlqoyma və açılış mərasimlərində iştirak edir, aparılan işlərlə yerindəcə tanış olur, tapşırıq və tövsiyələrini verir. Məlumdur ki, dekabrın 1-i 2020-ci il tarixində Laçın rayonu Azərbaycan Respublikasına qaytarıldı. Bu, Azərbaycan Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatında öz əksini tapmış oldu. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində demişdir: "Biz Laçını həm döyüş meydanında, həm siyasi yollarla qaytardıq. İkinci Qarabağ müharibəsi dövründə Laçın rayonunun işğaldan azad edilməsi əsas vəzifələrdən biri idi və biz faktiki olaraq Laçın rayonunun cənub hissəsini döyüşərək, vuruşaraq azad etdik. Güləbird və digər bir neçə kənd döyüş meydanında azad edilmişdir, biz Laçın-Xankəndi yoluna çıxmışdıq. Məhz bu əməliyyat nəticəsində, eyni zamanda, Şuşa şəhərinin erməni işğalçılarından azad edilməsi faktiki olaraq Ermənistan dövlətinin kapitulyasiyasına gətirib çıxarmışdır. Vaxtilə "Qarabağ Ermənistandır", - deyən Ermənistan rəhbərliyi öz məğlubiyyətini qəbul etməyə məcbur olmuşdur və 2020-ci ilin noyabrın 10-da kapitulyasiya aktı Ermənistan tərəfindən imzalandı. Laçın rayonunun digər hissəsi - ən böyük hissə artıq siyasi yollarla azad edilmişdir. Bu, bizim böyük tarixi Zəfərimizdir", - deyə bildirmişdir.

## QARABAĞIN BƏRPASI VƏ İNKİŞAFI

44 günlük Vətən müharibəsində qısa bir zamanda uğurlu əməliyyatlar nəticəsində düşmən tapdağı altında olan torpaqlarımızın işğaldan azad olunması ilə Ermənistanın 30 ilə yaxın davam edən işğalçılıq siyasətinə son qoyuldu. Ermənistan tərəfindən işğal altında saxlanılmış ərazilərdə Azərbaycanın şəhərləri və digər yaşayış məntəqələri, o cümlədən infrastruktur obyektləri tamamilə dağıdılıb, milli-mədəni irsimiz məhv edilib, təbii sərvətlərimiz talan olunub. Bu gün işğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərinə başlanılıb. Azərbaycan yalnız özünün maliyyə resurslarına arxalanaraq sıfırdan yeni şəhər və kəndlər salır. 2021-ci ildə bu məqsədlə dövlət büdcəsindən 1,3 milyard, 2022-ci ildə isə 2,2 milyard ABŞ dolları məbləğində vəsait ayrılmışdır. Təbii ki, Böyük Qələbənin nəticəsində yaradılmış yeni reallıq Qarabağın bərpası və inkişafını nəzərdə tutan Böyük Qayıdış strategiyasının aktuallığını təmin edir.

## "ŞUŞANIN, ONDAN SONRA LAÇININ İŞĞAL ALTINA DÜŞMƏSİ AZƏRBAYCANDA ÇOX CİDDİ SİYASİ BÖHRANA SƏBƏB OLMUŞDUR"

18 may 1992-ci ildə Ermənistan Silahlı Qüvvələri Laçının işğalı zamanı 264 nəfər şəhid olmuş, 65 nəfər girov götürülmüş, 103 nəfər əlil olmuşdur. Rayon üzrə 1 yaşdan 16 yaşadək mövcud olan 24374 nəfər uşaqdan 18 nəfəri şəhid, 225 nəfəri əlil olmuş, 1071 nəfəri bir, o cümlədən 31 nəfəri hər iki valideynindən yetim qalmışdır. İşğal ilə əlaqədar rayona 7,1 milyard ABŞ dolları dəyərində ziyan dəymişdir. Laçının işğalı zamanı bu məkanda 50 mindən artıq əhali yaşayırdı. Laçın rayonunda 1992-1993-cü tədris ilində - işğal olunana qədər 106 məktəb fəaliyyət göstərib. Məktəblərdə təhsil alan şagirdlərin sayı 8 min 877, müəllimlərin sayı isə 1390 nəfər olub. Laçın rayonunda 1 ədəd avtovağzal, 82 avtobus dayanacağı, 2130 km uzunluğunda avtomobil yolları, 92 ədəd körpü, 1187 km uzunluğunda su kəməri, 33 su anbarı, cəmaşırxana, 15 km uzunluğunda mərkəzi kanalizasiya, 20 km uzunluğunda istilik şəbəkəsi, 14 hamam, 8 ədəd yanacaq doldurma stansiyası, 2636 km uzunluğunda elektrik hava xətləri, 498 km uzunluğunda qaz kəməri, 10200 km uzunluğunda radio-telefon kommunikasiya xətləri, 3 ədəd televiziya stansiyası və ötürücülər və sair mövcud olmuşdur. Bütün bunlar dağıdılıb. Onların öz doğulduqları yerə göndərilməsi əsas məsələlərdən biridir. Təbii ki, işğaldan azad olunan ərazilərimiz kimi Laçın da tamamilə dağıdılıb. Dövlət başçımız Laçının işğalı ölkəmiz üçün böyük faciə idi, laçınlılar üçün böyük faciə idi, - deyərək, bunun AXC-Müsavat xəyanətkar cütlüyünün növbəti çirkin xəyanəti olduğunu qeyd etmişdi:"AXC-Müsavat cütlüyü hakimiyyətə can atırdı, istənilən yollarla hakimiyyəti zəbt etməyə çalışırdı və torpaqların Ermənistana verilməsi, satılması faktiki olaraq onların bu çirkin niyyətə çatmaları üçün bir fürsət idi. Onlar bunu belə qiymətləndirirdilər - hesab edirdilər ki, əgər Azərbaycan xalqı böyük bir sarsıntı keçirərsə, onlar üçün əlavə şanslar yaranacaq. Əfsuslar olsun ki, belə də oldu. Şuşanın, ondan sonra Laçının işğal altına düşməsi Azərbaycanda çox ciddi siyasi böhrana səbəb olmuşdur. Bu imkandan, fürsətdən istifadə edərək AXC-Müsavat xəyanətkar cütlüyü Laçın işğal olunandan bir ay sonra hakimiyyəti qanunsuz yollarla zəbt etmişdir və bu, daha böyük faciələrə yol açdı".



## "2025-Cİ İLİN ƏVVƏLLƏRİNDƏ HAVA LİMANI İSTİSMARA VERİLƏCƏK"

İşğaldan azad olunan Laçınımız yenidən qurulur. Laçın rayonunun yenidən bərpası ilə bağlı işlər aparılır, bir çox işlər görülür. Laçın rayonunda Beynəlxalq Hava Limanının inşası davam etdirilir. "O bölgədə heç vaxt hava limanı olmamışdır və hava limanının yerini müəyyən edərkən böyük çətinliklərlə üzləşmişdik. Çünki orada uçuş-enmə zolağının inşası üçün düz yer tapmaq mümkün olmadı. Biz dağları kəsərək və böyük torpaq işlərini həyata keçirərək bütün dağlıq ərazilərdə, dağlarla əhatə olunan ərazilərdə beynəlxalq hava limanı inşa edirik. Yəqin ki, gələn ilin sonunda, ya da 2025-ci ilin əvvəllərində hava limanı istismara veriləcək", - deyə Prezident bildirib. Bildiyimiz kimi, işğaldan azad edilmiş Zəngilan rayonunun Ağalı kəndinə Böyük Qayıdışın ilk karvanı yola düşmüşdü. Birinci, İkinci, Üçüncü Ağalı kəndləri 2020-ci ilin oktyabrın 28-də işğalçılardan azad edildi və altı aydan sonra Ağalıda yeni kəndin təməl daşı qoyuldu. Böyük Qayıdışın ilk sorağı Ağalı kəndinə əhalinin köçürülməsi oldu. Köçürülən keçmiş məcburi köçkünlərin böyük qismi əsasən, daha ağır şəraitdə yaşayanlardır. Müvafiq qurumlar tərəfindən sakinlər peşə ixtisaslarına və bacarıqlarına uyğun şəkildə işlə təmin ediliblər. Onlar müxtəlif dövlət qurumlarında, ictimai iaşə obyektlərində, tikinti şirkətlərində və digər yerlərdə çalışırlar. Köçürülmüş əhali üçün bütün infrastruktur şərait - dövlət xidmətləri mərkəzi, məktəb, bağça,



bank, poçt, ictimai iaşə obyektləri və sair mövcuddur. Daha sonra Tərtər rayonunun Talış kəndinə köç başladı. Artıq yollar açılıb. Əzəli sakinlərin əzəli torpaqlarına yol aldıqları yollar. Laçın rayonunun əzəli sakinləri öz ata-baba yurduna dönəcəklər.

## GÜLƏBİRD KƏNDİNDƏ 581 AİLƏ MƏSKUNLAŞACAQ

Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın rayonunun Güləbird kəndinin təməlqoyma mərasimində iştirak edib. Güləbird kəndində ümumilikdə 581 ailənin məskunlaşması planlaşdırılıb. Layihələndirilən ərazinin ümumi sahəsi 172 hektardır. Birinci mərhələdə kəndə 150 ailənin köçürülməsi üçün fərdi evlərin inşası planlaşdırılır. Kənddə tikiləcək evlər ikiotaqlı, üçotaqlı, dördotaqlı və beşotaqlı olacaq. İkiotaqlı evlərin sahəsi 70, üçotaqlılar 88, dördotaqlılar 103, ikimərtəbəli olacaq beşotaqlıların sahəsi isə 120 kvadratmetr təşkil edəcək. Burada, həmçinin 432 şagird yerlik məktəb, 80 yerlik uşaq bağçası tikiləcək. Güləbird kəndində əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılacaq. Kənddə klub icma, ailə sağlamlıq və idman sağlamlıq mərkəzləri və digər zəruri infrastruktur obyektləri inşa olunacaq. Burada istirahət parkı salınacaq, idman və uşaq meydançaları yaradılacaq, ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək. Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq, bütün işlər ən yüksək səviyyədə yerinə yetiriləcək.

## LAÇIN RAYONUNA 10 MİNƏ YAXIN ƏZƏLİ SAKİNİ KÖÇ EDƏCƏK

Qeyd edək ki, birinci mərhələdə Laçın şəhərində 500-ə yaxın fərdi ev inşa edilir və ya ermənilər tərəfindən dağıdılmış evlər yenidən bərpa olunur. Çoxmərtəbəli səkkiz yaşayış binası yenidən qurulur, ya da ki, tamamilə əsaslı təmir olunur və 30-dan çox ictimai bina inşa edilir. "Mənim göstərişimlə bütün bu işləri biz bu ilin sonuna qədər başa çatdırmalıyıq, bu, sadəcə, birinci mərhələ olacaq. Bu evlərin sayı göstərir ki, minlərlə insan artıq bu ilin sonuna qədər Laçın şəhərində yaşayacaq və laçınlılar bu il öz doğma diyarına qayıdacaqlar", - deyə Prezident bildirib.

Azərbaycan Prezidenti İlham Əliyevin "Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunun işğaldan azad olunmuş Zabux və Sus kəndlərinin layihələndirilməsi və tikintisi işləri ilə bağlı tədbirlər haqqında" məlum Sərəncamı işğaldan azad olunan ərazilərimizin tezliklə abadlaşacağını və öz torpaqlarından didərgin düşmüş minlərlə insanın öz dədə-baba yurduna tezliklə qayıdacağını özündə əks etdirir. Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunun işğaldan azad olunmuş Zabux və Sus kəndlərinin layihələndirilməsi və tikinti işlərinin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə ilkin olaraq 800,0 (səkkiz yüz) min manat ayrılıb. Zabux və Sus kəndlərinin tamamilə yenidən qurulması prosesinə start verilib. Zabux kəndində 1000-dən çox, Sus kəndində isə 300-dən çox insan yerləşəcək. Bütün bunlarla yanaşı, dövlət başçısı tərəfindən Güləbird və Qorçu kəndlərinin Baş planı təsdiqlənib. Dövlət başçısının bildirdiyi kimi, Laçın rayonuna təqribən 10 minə yaxın, bəlkə də çox keçmiş köçkünü yerləşdiriləcəkdir.



Azərbaycanın iqtisadi gücü, dinamik inkişaf layihələrin reallaşmasına imkan verir. Zaman və görülən işlər bunu göstərir ki, ədaləti bərpa edən Azərbaycan bölgədə sülh və təhlükəsizliyə əsaslanan siyasətini uğurla davam etdirərək, Böyük quruculuq-abadlıq işlərini də uğurla davam etdirir. "Azərbaycanın əzəli, tarixi torpaqları işğaldan azad olunub. "Bizim ölkəmiz üçün yeni dövr başlayır", deyən dövlət başçısının bu fikirlərini vurğulamaq yerinə düşər: "Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq. Beynəlxalq müstəvidə öz sözümüzü demişik, bölgədə öz sözümüzü demişik. İstədiyimizə nail olmuşuq və əminəm ki, bundan sonra bizim xalqımızı təhlükəsiz və xoşbəxt həyat gözləyir".

***Zümrüd BAYRAMOVA***

# İki bəyannamə, bir dəhliz




**Brüssel görüşündən Azərbaycan özü üçün daha bir üstünlük əldə etdi. Bu platformanın təşkilatçıları da, maraqlı tərəflər də bir daha əmin oldular ki, Azərbaycanın mövqeyi qətidir və Qarabağ ətrafında kənar qüvvələrin mübahisə aparması, hansısa dialoqun təşkil edilməsi, yaxud son anda ermənilərə hansısa statusun verilməsindən söhbət gedə bilməz. Bunun üçün heç bir hüquqi baza yoxdur.**



Ermənilərin müstəqillik iddiaları isə yalnız separatçılıqdır. Ölkənin qanunlarını tanımayan, onun suveren hüquqlarına sayqısızlıq göstərən, xəritəsində hansısa düzəlişlər edilməsinə cəhd göstərən kim olursa olsun layiqli cavabını alacaq. Azərbaycan tərəfi bütün görüşlərdə bütün dünyanın qəbul etdiyi beynəlxalq hüquq və prinsipləri əlində tutaraq münasibətlərin normallaşmasına, bölgəyə sülhün gətirilməsinə çalışıb. Brüssel görüşündə də Azərbaycanın arsenalında olan faktorlar masaya qoyulmuşdu. Ya Ermənistan Azərbaycanın ərazi bütövlüyünü sözdə deyil, əməldə tanıyacaq, ya da Bakının sonsuza qədər İrəvanla çək-çevir aparmaq kimi səbri yoxdur. Yəni, sülh Ermənistana lazım deyilsə, bizə də lazım deyil.



Amma məsələnin aydın olan bir tərəfi də var. Azərbaycan öz suveren ərazilərindən Ermənistan ordusunun çıxması üçün düz 28 il gözləməli oldu. Beynəlxalq güclər, üç həmsədrin - Fransa, Rusiya və ABŞ-ın ifasında rollarını lazımi şəkildə oynaya, ermənilərə "dur" deyə bilmədilər. Hər kəs üçün, hər ölkə üçün keçərli olan ərazi bütövlüyü məsələsi nədənsə üç supergüc tərəfindən qulaqardına vuruldu. Niyə? Nəyə görə dünyanın güc mərkəzləri öz imiclərini, yaxud özləri tərəfindən qəbul olunmuş monolit qanunu ermənilərə görə ayaqlar altına atdılar? Başa düşülən deyil. Bəs nəticə nə oldu, Ermənistanı "yola gətirmək" üçün daha nə etmək lazım idi? Bu sualın cavabını da Azərbaycan tapdı. Ermənistanın işğala son qoyması üçün ona qarşı atılan son addımı reallaşdırdı. 2020-ci ildə, payızın ilk həftəsində BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin yerinə yetirilməsi əməliyyatına start verildi. Cəmi 44 günə erməni qoşunları şərti sərhədin o tayına qovuldu. Əslində Azərbaycan silahlı qüvvələri Ermənistan ordusu kimi hərəkət etsəydi, insanları yurd-yuvasından qovmaq, öldürmək, əsir götürmək, işgəncə vermək, evləri talamaq, dağıtmaq, vandallıq etmək, etnik təmizləmə həyata keçirmək kimi niyyətdə olsaydı cəmi bir həftəyə hərbi əməliyyatı sonlandıra bilərdi. Amma hədəfdə hərbi obyektlər idi.

Nəhayət, Azərbaycan beynəlxalq güclərin sülh yolu ilə etməli olduqlarını onların əvəzindən hərbi yolla həll etməli oldu, niyə, çünki çıxış yolu qalmamışdı. Bu gün də Ermənistan məğlub ölkə olaraq sülh imzalamaq, sülhə əməl etmək kimi niyyət ortaya qoymur. Prosesi uzadır, şansını əldən verir. Əslində sülh prosesi təkcə Azərbaycan, yaxud Ermənistan üçün yox, bütün bölgə üçün dövriyyədədir və Bakı buna çalışır. Hər kəsin bildiyi bir məsələ də var ki, Azərbaycanın ərazi bütövlüyünün tanınmasının alternativi yoxdur. Bunu Ermənistanda da, Rusiya və Vaşinqtonda da bilirlər.

*Ardı Səh. 12*



## Qardaşlıq dini

Lalə Mehralı

**İnsan yaranışının hər dövründə ilahi inanca, ilahi ümidə, sığınmaya, inanmaya, işığa ehtiyac duyub. Dinlər və ruhi biliklər də, məhz bu ehtiyacdan yaranıb. Din ruhi bilik verməlidir və əgər bunu bacarmırsa məhvə məhkumdur. Din Tanrıdan, yaradılışdan, ruhdan bəhs etməlidir, insanlara bu haqda bütün suallarını cavablaya biləcək dərinlikdə olmalıdır. Din Tanrı qatından danışmalıdır, Tanrını təsvir etməlidir, onun dərgahının özəlliklərindən bəhs etməlidir.**

Din qorxu və xof aşılamamalıdır, din ibadət etməyəni qır qazanında, cəhənnəm odunda yanmaq ilə hədələməməlidir. Din ibadət edənə maddi həzlər vəd etməməlidir, mömin olana süd çayı kənarında qızıl taxt boyun olmamalıdır. Ömrünü ibadətə həsr edən həqiqi möminə 40 mələikə verəcəyi barədə şirnikləndirməməlidir. Axı bütün bunlar maddi həzdir, əgər din öz mömin bəndəsinə bunları vəd edirsə bu o deməkdir ki, sən Tanrı qatına layiq deyilsən və növbəti doğuluşunda onun yanına yox, cənnət kimi yerə nisbətən daha yaxşı maddi planetlərə göndəriləcəksən.

Tanrının bütün kitablarının müqəddəsliyinə inanıram, "Quran"ı, "İncil"i, "Tövrat"ı, "Zəbur"u, "Bhaqavat-Qita"nı da müqəddəs hesab edirəm, onları yer üzündə gətirənləri də. İlahi kitabların hamısını oxumuşam, çünki insanlığın tolerant baxışlı olmasının tərəfdarıyam. Tolerantlığı yüksək bir mədəniyyət hesab edirəm. O mədəniyyətin də hər bir millətə, hər insana verilmədiyi qənaətindəyəm. Azərbaycan tarixən tolerant bir diyar olub, burada istənilən düşüncəli insan rahatlıqla yaşayır. Burada bir xristian məscidə girib ibadət edə bilər, ona məscidə girməyi heç kim qadağan etmir. Burada bir müsəlman Krişnanın murtisi qarşısında canamazını açıb namazını qıla bilər, burada bir krişnaçı kilsədə Tanrı Krişnaya dua edə bilir. Burada bütün müqəddəs evlər bütün insanların üzünə açıqdır - həqiqi Tanrı evi kimi.

Bir dəfə müxtəlif din xadimlərinin bir dəyirmi masasına şahid olmuşdum. Hər dinin bir nümayəndəsinin qatıldığı müzakirədə çox maraqlı söhbətlər oldu. Mənim diqqətimi çəkən isə onların bir-biri ilə dalaşa-savaşa mübahisə etməsi yox, əksinə, kifayət qədər normal müzakirə aparmaları oldu. Daha diqqətçəkən bir məqam isə mömin müsəlmanın krişnaçıya xeyir-duası oldu: "Allah saf ibadətinin qarşılığını cənnətlə versin". Krişnaçının cavabı etirazla başlayırdı: "Nə danışırsınız? Mən onun dərgahına getmək istəyirəm, cənnətdə nə işim var?!"

Mən ölkəmizdə olan bütün dindarların o dəyirmi masada olan din xadimləri kimi bir-birinə hörmətlə yanaşmasını istəyirəm. Mən istəmirəm ki, hərə öz guşəsinə çəkilib öz ibadətinin daha doğru olduğunu düşünsün. İstəmirəm ki hərə öz ibadətinin daha doğru olduğunu iddia etsin. Ayrı dillərdə ibadət edə, ayrı-ayrı müqəddəs kitablara inana bilərik, amma ilham aldığımız nöqtə eynidir - Tanrı. Hər kitabın özülündə o var, hər kitabın sonunda da odur. Krişna da odur, Allah da, Tanrı da. Məqam da birdir, məram da birdir, məqsəd də. Əsas olan ibadət deyilmi? Yaradana hörmət və ehtiram göstərməyin çox yolu ola bilər, o hörməti məsciddə də, kilsədə də, məbəddə də göstərmək mümkündür. Allah üçün edilən hər dua, oxunan hər ilahi, söylənən hər şərqi ibadətdir. Oxuyanın, dilin, dinin, məkanın nə fərqi var ki?

"Uzaq Sahillərdə" filmində Veselinlə Mixaylonun qoca atanın yanına gəldikləri səhnəni xatırlayırsınızmı? Oğlunun həyatını qurtaran Mixayloya xeyir-dua verən qoca "İsa səni qorusun" deyir. Veselin isə "o xristian deyil ata" deyir. "Hə? Bəs hansı dinə inanır?" deyə qoca soruşur. Cavabı çox mükəmməl olur: "Qardaşlıq dininə!"

# İki bəyannamə, bir dəhliz

Əvvəli Səh.11

Belə olan təqdirdə danışıqların bu qədər uzanmasının yalnız bir səbəbi var, o da İrəvanın müstəqil siyasət yürütmək iqtidarında olmamasıdır. Ermənistan hələ də maşa rolunu oynamaqdadır. Halbuki beynəlxalq hüquq Azərbaycanın tərəfindədir. Danışıqların bütün predmeti Azərbaycan əraziləridir. Ermənistan əgər güzəştdən söhbət edirsə bunu Azərbaycan torpaqları üzərindən etməyə çalışır. Əslində bu güzəşt yox, işğalın sona çatdırılmasıdır. Və yalnız bundan sonra iki ölkə arasında sülh müqaviləsi bağlana bilər. İrəvan isə Azərbaycanın halal, suveren əraziləri üzərindən bazarlıq etmək istəyir. Bu da mümkün deyil.

Azərbaycanın güzəştə getməsindən söhbət gedə bilməz, yalnız suveren ərazilərimizdə ölkəmizin bütün qanunları tam olaraq bərpa ediləndən, hazırda Ermənistanın işğalı altında olan kəndlərimiz geri qaytarılandan, Naxçıvanla Azərbaycanın qərb rayonları arasında nəqliyyat əlaqəsi yaradılandan və İrəvanla sülh müqaviləsi imzalanandan sonra bölgəyə sülhün gələcəyini deyə bilərik.

Ermənistan və Azərbaycan liderləri arasında keçirilmiş görüşdən sonra ermənilərin ölmüş ümidləri bir az da dərinə düşüb. İlk reaksiya da Xankəndidə və ətraf bölgələrdə







hələ də qalan tör-töküntü erməni separatçılarından gəlib. Brüssel formatında sayca beşinci görüşdə Azərbaycanın üstünlüyünün bir daha təsdiqi onları küçələrə töküb. 30 il ərzində dünyaya müstəqillik nağılı danışan ermənilər özlərini təsdiq edə, yaxud dünyaya tanıda bilməyiblərsə, bu gün onların haray-həşirlərinin heç bir əhəmiyyəti olmayacaq.

Brüssel görüşü Ermənistanla Azərbaycan arasında normallaşma baxımından faydalı hesab edilir. Ermənistan Azərbaycanın ərazi bütövlüyünü bu dəfə Avropa platformasında etiraf etməli oldu. Bu görüşdə də rəsmi Bakının prinsipial mövqeyi bir daha qarşı tərəfin diqqətinə çatdırıldı. Ermənistanın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünü bir daha tanıması müstəsna əhəmiyyətlidir. Buna baxmayaraq kənar təzyiqlər İrəvana təsir etməkdədir. Danışıqlar zamanı Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu, işğal altındakı kəndlərin geri qaytarılmasının vacib olduğunu, sərhəd bölgəsində təhlükəsiz mühitin yaradılmasını, demarkasiya prosesinin tezliklə həyata keçirilməsinietiraf edən və buna çalışdığı görüntüsü yaradan Ermənistan başqa platforma və yaxud tədbirlərdə fərqli yanaşma və fikirlər ortaya qoyurlar. Bu da qeyri-ciddilikdən xəbər verir. Bu dəfəki görüşün ən vacib tərəflərindən biri də Mişelin bəyanatının mətnində Laçın yolu ilə bağlı qeydin olmamasıdır. Bu, bir daha 44 günlük Vətən müharibəsində Azərbaycanın əldə etdiyi qələbənin yaratdığı yeni reallıqların beynəlxalq ictimaiyyət tərəfindən qəbul edildiyini təsdiqləyir. Görüşdə Zəngəzur dəhlizinin dəmir yolu hissəsinin açılması ilə bağlı irəliləyiş də nəzərə çarpır".

Brüssel görüşü Qərbdə Bakının gündəliyinin, xüsusilə Qarabağla bağlı mövqeyinin möhkəmlənməsi baxımdan əhəmiyyətli oldu və Şarl Mişelin yekun bəyanatı göstərdi ki, Əliyev buna nail ola bilib. Bəyanatda bunu təsdiq edən iki məqam var. Açıq mətnlə qeyd olunub ki, tərəflər qarşılıqlı olaraq ərazi bütövlüyünün tanınmasına sadiqliyi təsdiq ediblər. Qarabağ məsələsi yalnız ərazidəki erməni əhalisinin hüquq və təhlükəsizliyinin qorunması, onlarla təmasların qurulması çərçivəsində müzakirə olunub. Məqalə çapa hazırlanarkən Qarabağdan əldə etdiyimiz xəbər bu idi ki, separatçılar arasında əsl didişmə başlayıb. Arayiklə Rubenin davasına peşəkar döyüşçü olan Samvel Babayan da şərik çıxıb. Bu dəqiqələrdə keçirilən mitinqdə hakimiyyətin bölüşdürülməsinə start verilib. Daha doğrusu Babayan Paşinyanın adamı olaraq Arayikin "hakimiyyətdən" getməsini istəyir. Erməni mətbuatı yazır ki, linc olunmaqdan qorxan Arayik bu barədə düşünəcəyini bildirib. Çünki, Babayana qarşı qoyacağı resurs da artıq yoxdur. Yol bağlı, ehtiyat yox, sülhməramlılardan da haray yox, çıxış yolu aradan çıxmaqdır. Amma necə?

Maraqlı məsələ bir də odur ki, hələ də Paris və Moskva Qarabağ məsələsinə fokuslanmaqda davam edirlər. Onların fərqli yanaşmaları da ara-sıra dərc olunur. Ümumi fikir budur ki, Ermənistanın şifahi olsa da Azərbaycanın ərazi bütövlüyünü tanıyır və bunu "Alma-Ata Bəyannaməsi"nə sadiqliklə ifadə edir, amma rusların planlarını neytrallaşdırılmaqda hələ də çətinlik çəkir. Brüssel görüşünün ən diqqətçəkən məqamı da tərəflərin bir-birinin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərinin qarşılıqlı tanınması və hörmət edilməsi əsasında münasibətlərin normallaşdırılmasının regionda davamlı sülh və sabitliyin təmini üçün yeganə yol olduğunun bəyan etmələridir.

"Alma-Ata Bəyannaməsi"ndə Ermənistanın ərazisi 29,800 kvadrat kilometr, Azərbaycanın isə 86,600 kvadrat kilometrlik ərazisi təsbit olunub. Prinsip etibarilə rəsmi Bakı Ermənistanın ərazi bütövlüyünə hörmət edir və tanıyır. Eyni qaydada Azərbaycan 1991-ci ilin "Alma-Ata Bəyannaməsi"nə zidd heç nə etməyib. Ermənistan isə Azərbaycan ərazilərinin 20 faizini işğal edərək bu Bəyannaməni pozan tərəfdir. İndiki məqamda rəsmi Bakının bəyannaməni qəbul edib Ermənistanın ərazi bütövlüyünü tanıması simvolikdir. Lakin Ermənistanın məhz Brüsseldə bunu qəbul etməsi vacibdir. Çünki Ermənistan Azərbaycanın ərazi bütövlüyünü bu dəfə Avropa Birliyi platformasında etiraf edib.

Görüşün diqqətçəkən məqamlarından digəri də şübhəsiz Zəngəzur dəhlizi ilə bağlıdır. Şarl Mişel görüş zamanı tərəflərin regionda nəqliyyat və iqtisadi əlaqələrin bərpası istiqamətində müzakirələrdə irəliləyişə nail olduğunu qeyd edib. Deyib ki, bu mövzuda xüsusilə də Naxçıvana və əks istiqamətdə dəmir yolu əlaqəsinin bərpasına dair mövqelər olduqca yaxınlaşıb. Dəmir yolu əlaqələrinin bərpası ilə bağlı modallıqları və konkret qrafik üzrə zəruri inşaat işlərini özündə ehtiva edəcək ümumi razılaşmanın yekunlaşdırılmasına dair müvafiq heyətlərə təlimatlar verilib. Bu işdə tərəflər Ümumdünya Gömrük Təşkilatından dəstək alınmasına dair razılığa gəliblər.

Bəli, ortada istinad edəcəyimiz iki bəyannamə var, biri Alma-Atı, biri də Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri arasında imzalanmış sənədlər. Sənədlərdən biri Azərbaycanın SSRİ-nin dağılması ərəfəsində malik olduğu sərhədlər barədədir, ikinci sənəd isə Ermənistanın işğalçılıq əməllərinin məntiqi sonluğunu gətirən bəyannamədir. Bu sənədə həm də İrəvanın kapiyulyasiya aktı da deyirlər. Üçtərəfli Bəyanatın bir bəndində Zəngəzur dəhlizi barədə maddə var. Onu həyata keçirmək də hələlik danışıqlar predmetidir. Nəzərə alsaq ki, ermənilər yalnız zor dilində anlamağa öyrəniblər, onda Zəngəzur dəhlizinin açılmasına sayılı günlər qalır ki...

**V.VƏLİYEV**

# Mavi təsdiq butonu üçün niyə dəridən-qabıqdan çıxırlar?

***Son zamanlar bir sıra məşhur simalar və influserlər arasında ”Mavi tık” almaq üçün ciddi rəqabət gedir. Bəziləri hətta bu mavi təstiq butonunu almaq üçün sərvət ödəyir. Bəs, nədir bu ”Mavi tık”? Nə kimi özəlliyi var? Niyə uğrunda bu qədər mübarizə aparılır?***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Mavi işarə, təsdiqlənmiş sosial media hesabının yanında görünən mavi nişandır.





Sosial media dünyasında mavi işarə populyarlıq göstəricisidir.

Xatırladaq ki, bir çoxumuz ”Mavi tık” dedikdə ancaq ”İnstagram”ı düşünsək də, ”Twitter”, ”Facebook” və s. bir çox sosial media platformasında mavi təstiq butonu əldə etmək mümkündür. Sosial media platformaları sizə yalnız həqiqi, aktiv hesabınız və diqqətəlayiq işiniz varsa mavi işarə verəcək. Lakin istisnalar var. Məsələn, son zamanlar bir çox influserlər özünü ”İnstagram”a müğənni, aktyor və s. kimi tanıdaraq ”mavi tık” alır.

Mavi simvol hesabın ”Instagram” tərəfindən rəsmi olaraq təsdiqləndiyini bildirir. Bu onun göstəricisidir ki, ”Instagram” tərəfindən təsdiqlənmiş nişanı olan insanlar, brendlər və bizneslər realdır. Mavi nişan ”Instagram”da önəmli şəxslərə və brendlərə verilir. Bu, saxta hesablardan və təqlidlərdən qaçmaq üçün həqiqətən vacibdir. Lakin son zamanlar bu vacibliyini bir qədər itirib. Çünki artıq həmin ”Mavi tık”ı sıradan adamlar da pulla hakerlərə aldıra bilir.

Saxta hesablar sosial mediada tanınmış hesabları hədəfə alır və fırıldaqçılar diqqətsiz izləyiciləri aldatmaq üçün oxşarlarından istifadə edirlər. Bu isə brendinizə və sosial mediadakı imicinizə mənfi təsir göstərir.

Məhz bu səbəblərə görə ”Instagram” mavi təsdiq butonunu yaratdı. Mavi təstiq butonu ”Instagram”da həqiqilik sertifikatıdır. Bu, izləyicilərə hesabın arxasında duran şəxsin və ya brendin həqiqi olduğunu və etibar edilə biləcəyini göstərir.

## Niyə hamı ”Mavi tık” istəyir?

Mavi işarə həqiqi ”Instagram” hesablarını yoxlamaq üçün vacibdir, eyni zamanda populyarlıq simvoludur.

## ”Mavi tık”ı necə ala bilərik?

Əslində, hər kəs mavi təstiq butonu üçün müraciət edə bilər. Çünki ”Instagram”, prosesi aydınlaşdırmaq və mavi təstiq butonu üçün gizli qara bazarın qarşısını almaqla 2018-ci ilin avqustunda ictimai təsdiqlənmiş hesab tətbiqini işə saldı.

”Instagram” doğrulaması üçün müraciət prosesi həqiqətən asandır. Sadəcə aşağıdakı addımları yerinə yetirməlisiniz:

1. Profilinizə daxil olun və yuxarı sağ küncdəki ”Menyu” düyməsini klikləyin.
2. Parametrlər
3. Hesab
4. Aşağıdakı ”Doğrulama sorğusu” üzərinə klikləyin.
5. Tam adınızı, profesional adınızı və kateqoriyanızı daxil edin.




6. Şəxsiyyət vəsiqənizin və ya iş sənədlərinizin şəklini yükləyin.
7. Ərizəniz tamamlandıqda ”Göndər” düyməsini klikləyin.

Şəxsiyyət vəsiqənizi əlavə etdiyiniz bölməni oxumağınızdan əmin olun. Biznes və ya brend üçün doğrulama tələb edirsinizsə, adınızı və doğum tarixinizi (məsələn, sürücülük vəsiqəsi, pasport və ya doğum haqqında şəhadətnamə kimi) açıq şəkildə göstərən rəsmi şəxsiyyət vəsiqəsinə, biznes sənədlərinə ehtiyacınız olacaq.

”Instagram” sorğunuza baxdıqda sizə xəbər verəcək.

## ”Instagram”da ”Mavi tık” əldə etmək üçün hansı tələblər var?

”Instagram”ın hesabınızın yoxlanılması üçün gözləntiləri aşağıdakılardır:

- ”Instagram”ın Xidmət Şərtlərinə və İcma Təlimatlarına əməl edin
- Orijinal olun - Hesabınızın bir şəxsi, biznesi və ya brendi təmsil etməsindən asılı olmayaraq, siz dediyiniz şəxs olmalısınız.
- Unikal olun - Hər bir şəxs və ya biznes üçün yalnız bir hesab doğrulana bilər.
- Tam olun - Profiliniz tam olmalıdır. Bu o deməkdir ki, lentinizdə bio, profil şəkli və ən azı bir yazı olmalıdır.
- Diqqət çəkici olun - Hesabınız tanınmış, çox axtarılan brendi, şəxsi və ya biznesi təmsil etməlidir.

Siz həmçinin rəsmi fotoşəkli şəxsiyyət vəsiqəsi və ya müvafiq biznes sənədləri ilə şəxsiyyətinizi təsdiqləməlisiniz.



## İnstagramda ”Mavi tık”ın olmasının üstünlükləri nələrdir?

1. ”Instagram”da təsdiqlənmək insanlar tərəfindən inam yaradır

”Mavi tık” izləyicilərinizi həqiqi olduğunuza və hesabınızın etibarlı olmasına hərkəsi əmin edir.

2. Hekayə bölümündə ”Instagram” linkinə girişi təmin edir

Doğrulanmış hesablar ilk olaraq Instagram hekayələrinə keçidlər əlavə edə bildi. Doğrulama olmadan, funksiyaya daxil olmaq üçün ən azı 10.000 izləyiciyə ehtiyacınız olacaq.

3. Brend şüurunu yaradır

Daha əvvəl dediyimiz kimi, ”Mavi tık” dünyaya vacib biri olduğunuzu bildirir.

İnstaqramda Mavi təsdiq butonu almağınıza kömək etmək üçün bəzi məsləhətlər:

1. Instagram Bio-nu tamamlayın

Instagram yoxlaması üçün əsas tələblərdən biri tam Instagram profilidir. Odur ki, tərcümeyi-halınızın tam doldurulduğuna, profil şəklinin daxil olduğuna və hesabımızda ən azı bir postumuz olduğuna əmin olun.

2. Xəbərlərə çıxın

İnstaqram hesablarını doğrulamağa ümid edən insanların diskvalifikasiya edilməsinin əsas səbəbi bunun xəbər dəyərli olmamasıdır. Hər bir Instagram hesabı birdən çox xəbər mənbəyini yoxlayan Instagram əməkdaşı tərəfindən əl ilə yoxlanılır. Buna görə də hesabınız tanınmış, çox axtarılan şəxs, brend və ya qurumu təmsil etməlidir. Birdən çox xəbər mənbəyində olan hesablar araşdırılır. Odur ki, press-relizlər göndərməklə və yerli xəbər agentlikləri ilə əlaqə saxlamaqla adınızı xəbərlərdə yer almasına imkan verin.

3. İnternetdə mövcudluğunuzu qabardın

Hesabınız yalnız Instagram ilə bağlıdırsa, yəqin ki, təsdiqlənməyəcəksiniz. Bununla belə, adınız ətrafında diqqətəlayiq bir varlıq yarada bilərsiniz.

## Necə?

Veb səhifənizdə görünmək üçün sosial media profillərini optimallaşdırın. Digər saytları ziyarət edin və oxşar bloqlarda, podkastlarda və videolarda iştirak edin.

4. İnstaqram izləyicilərinizin sayını artırmağa davam edin

Instagramda təsdiqlənmək üçün daha çox izləyici ilə mütləq daha nəzərə çarpacaq görünəcəksiniz. Adınızın yanında mavi işarə almaq şansınızı artırmaq üçün əhatə dairənizi və əlaqəli izləyicilərinizi artırmağa davam edin.

**SMM Manager (Sosial Media Marketing Mütəxəssisi) Murad Yazimov:** ”İlk olaraq qeyd edim ki, mavi təsdiq butonunu hər kəs ala bilmir. Bunu almaq üçün bizim hər hansı bir sahədə tanınmağımız və başqa sosial platformada təstiqləməyimiz lazımdır. Bunu təstiqləmək üçün idmançı və hər hansı sahədə tanındığımızı sübut edən məlumatlar lazımdır. Buna misal olaraq, ”Youtube” videomuz, hər hansı saytda paylaşılan xəbərimiz və s. ola bilər.

Mavi təsdiq butonu işinə hakerlər baxmır. Bu hakerin işi deyil. Biz bunun üçün həmin sosial şəbəkəyə müraciət edirik. İnstagramda doğrulama butonu var ki, özümüz onu dəqiq doldurmalıyıq.

Vacib məqamlardan biri odur ki, sizi izləyənlərin böyük əksəriyyəti real izləyicilər olsun. Real kütləniz varsa, mavi təstiq butonu ala bilərsiniz. Sadəcə olaraq influserlər və digər məşhur simalar bu doğrulama butonundan düzgün istifadə edə bilmir deyə hakerlərə ödəniş edib bu işi onlara həvalə edirlər.



Dorğulama tələbi göndərdiyimiz zaman ”İnstagram” bizim izləyicilərimizə, gördüyümüz işlərə və s. baxır. Tanınan və izləyici kütləsi olan insanı ”İnstagram” təstiq edir. Əslində, bu, ödənişsiz bir xidmətdir. Sadəcə, bunu etməyi hər insan bacarmır deyə, ödənişlə hakerlərə etdirirlər.

Xatırladaq ki, son iki aydır ki, bununla bağlı güncəlləmə gəlib. Artıq tanınan və tanınmayan hər bir hesab bu mavi təstiq butonunu aylıq 15 dollar ödəməklə əldə edə bilər. Düzdür, bu hal-hazırda Azərbaycanda aktiv deyil. Yəni, biz forum göndərmişik ki, adımızı o listə alsın. Daha sonra mavi təsdiq butonu əldə edə biləcəyik. Yəni, pul qarşılığında bu butonu əldə etmək olur. Bu güncəlləmə bir çoxunun iradına səbəb oldu. Çünki artıq həm tanınan, həm də tanınmayan hamı ”mavi tık” əldə edə biləcək”.

***Ayşən Vəli***

ARAŞDIRMA



# “Qarşımızda riyakar, ikiüzlü, hiyləgər ermənilər və onun lideri dayanır”

## Politoloq Anar Əliyevin "Səs" qəzetinə müsahibəsi

***- Anar müəllim, Brüsseldə keçirilən üçtərəfli görüş ümumilikdə sülhə doğru atılan müsbət bir addım hesab etmək olarmı?***

- 14 mayda Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin iştirakı ilə Azərbaycan və Ermənistan liderləri arasında birbaşa görüş keçirildi. Düşünürəm ki, bu görüşlə bağlı bir qədər fərqli təhlillər aparmaq lazımdır. Öncə onu qeyd edim ki, Şarl Mişel bu görüşdə moderatordan daha çox birbaşa görüşü təşkil edən tərəf rolunda çıxış elədi və bu hesab edirəm ki, Ermənistanla Azərbaycan arasında münasibətlərin tənzimlənməsi ilə bağlı digər platformalardan, xüsusilə də, Kreml platformasından müsbət mənada ciddi şəkildə fərqlənirdi. Digər tərəfdən hesab edirəm ki, bu görüşdə ən mühüm müsbət addımlardan biri Ermənistanın nəhayət ki, 31 avqust tarixində Brüssel formatında keçirilən görüşdən 9 ay sonra görüşün keçirilməsinə nail olması idi. Çünki dəfələrlə bu format çərçivəsində görüş keçirilməsinə cəhdlər edilmişdi, amma məhz Fransanın təhriki və Ermənistanın təxribatları ilə bu görüşlərin keçirilməsini qarşısı alınmışdır. Hələ ötən ilin noyabr aylarının sonlarından Fransanın görüşdə əlavə vasitəçi tərəf kimi çıxış etməsini və iştirak etməsini tələb edən Ermənistanın bu tələbləri əsasında Azərbaycan və Ermənistan liderləri arasında dekabrın 7-də keçirilməsi gözlənilən görüş təxirə salınmışdır.

***- Ermənistan Brüssel görüşü öncəsi də Fransanın görüşdə iştirak etməsini israr edirdi. Lakin Azərbaycanın qətiyyəti və prinsipiallığı nəticəsində Paşinyanın istəyi baş tutmadı.***

- 14 may görüşü ərəfəsində də Ermənistan yenə də təkidlə Brüssel formatının dəyişdirilməsini, yeni elementlərin daxil edilməsini xüsusilə də, Fransa prezidentinin orada iştirak etməsi ilə bağlı tələb qoyulmuşdur. Amma Azərbaycanın qətiyyətli mövqeyi ilə Ermənistan bu tələbindən geri çəkildi. Almaniyanın iştirakını da tələb etmişdi. Amma Azərbaycanın qətiyyətli əks mövqeyi ilə və əsaslı arqumentlər ilə Ermənistan bu tələbindən geri çəkilmək və görüşdə iştirak etmək məcburiyyətində qaldı. Bu görüş zamanı hesab edirəm ki, çox mühüm bir neçə istiqamətdə nəticələr əldə olundu. Əslində, Azərbaycanın uzun müddətdir ki, tələb etdiyi və irəli sürdüyü bir sıra şərtlər həm görüşü təşkil edən tərəf Avropa İttifaqı Şurası prezidenti Şarl Mişel, həm də sülh gündəliyi ilə bağlı müzakirələrdən davamlı şəkildə yayınmağa çalışan Ermənistan lideri tərəfindən qəbul edilmiş oldu. Birincisi, danışıqlar prosesinin getdiyi iki il yarımdan artıq bu dövr ərzində ilk dəfə Ermənistan Azərbaycanın konkret sərhədlər daxilində 86,6 min kvadrat kilometr ərazi bütövlüyümüzü və dövlət suverenliyimizi qəbul etdiyini, tanıdığını bəyan etdi. İkincisi, çox mühüm cəhət hesab edirəm bundan ibarətdir ki, Şarl Mişel bəyanatımda bu rəqəmləri qeyd etməklə erməni tərəfini Ermənistanın növbəti manipulyativ davranışlarının qarşısını almış oldu və açıq şəkildə bəyan etdi ki, biz Ermənistanın Paşinyanın söz oyununa meyilli olduğunu və götürdüyü öhdəliklərdən, verdiyi sözlərdən davamlı şəkildə yayınmağa çalışdığını bilirik və ona görə də, konkret rəqəmlərlə Qarabağda daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünün tanınma məsələsini qeyd edildi. Bu ən mühüm cəhətlərdən biri idi. Eyni zamanda, 10-12 may tarixlərində və görüşün keçirildiyi 14 mayda sərhəddə Ermənistan tərəfindən törədilən hərbi təxribatlar onu göstərdi ki, Ermənistan bu görüş ərəfəsində və görüş çərçivəsində bir neçə ciddi hədəfə nail olmaq istəyirdi. Birincisi, Ermənistan bununla 10-12 may tarixlərində ki, təxribatlarla özü üçün arzuolunmaz müzakirə gündəliyini, sülh gündəliyini dəyişmək və gündəliyin daha çox atəşkəs məsələləri ilə əhatə olunmasına çalışırdı. Buna nail olmadıqda, həm Azərbaycan tərəfinə həm də Avropa Birliyinə və dünya ictimaiyyətinə Azərbaycandan fərqli olaraq Ermənistanda bütün situasiyaya tam nəzarət edə bilmədiyini və baş verən proseslərin Paşinyanın iradəsindən kənar reallaşdığını və buna görə də, Paşinyandan daha ciddi tələblərin və qısa zaman ərzində yerinə yetirilməsinin, tələb edilməsinin real olmadığı görüntüsünü formalaşdırmağa çalışırdı. Üçüncü mühüm istək plan isə görüşün getdiyi vaxta belə təxribatları törətməklə Ermənistan cəmiyyətinin məğlub tərəf olaraq, Paşinyanın növbəti dəfə Ermənistanın müxtəlif dairələr tərəfindən məğlubiyyəti kimi, qiymətləndirilə biləcək sənədlərə imza atmağa risk edə bilmədiyini və bunun üçün də atacağı addımların, imzalayacağı sənədlərin Ermənistan cəmiyyəti tərəfindən qəbul edilməsi üçün Azərbaycan tərəfindən müəyyən güzəştlərin əldə olunması zərurəti yarandığı görüntüsünü formalaşdırmaq istəyirdi. Təxminən belə bir təsəvvür formalaşdırır ki, siz mənə hansısa müəyyən güzəştlər verin, hansısa güzəştlərə gedin ki, ”mən o güzəştlərlə Ermənistana qayıdarkən mənim imzaladığım sənədlər, mənim üzərimə götürdüyüm öhdəliklər bu güzəştlər hesabına qəbul edilə bilsin və onları həyata keçirə bilim”. Hesab edirəm ki, həm Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyətli mövqeyi, eyni zamanda, Şarl Mişelin də bəyanatında səslənən bir sıra məsələlər onu göstərdi ki, bəli artıq nəyin ki, Azərbaycan və Onun lideri eyni zamanda, bütün dünyada Ermənistanın mahiyyətini, Ermənistanın riyakar, ikiüzlü, hiyləgər davranışlarını çox yaxşı bilir, moniplyativ davranışlarda maraqlı olduqlarını çox yaxşı görür və bunun qarşısını almaq istiqamətində bəyanatlar səsləndirdi və konkret bəyanatda öz əksini tapdı.

***- Görüşü Azərbaycanın növbəti diplomatik qələbəsi hesab etmək olarmı?***

- Bəli, bütün görüşlərdə olduğu kimi, Brüssel görüşündə də Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyəti, çevik diplomatik fəaliyyəti nəticəsində ölkəmiz diplomatik zəfərini qazandı. Bu görüşdə mühüm nəticələrdən biri Qarabağda etnik erməni vətəndaşları terminindən istifadə olunmadı, heç bir halda ermənilərə hər hansı bir statusun verilməsi ilə bağlı məsələlər müzakirə olunmadı. Bəyanata bu istiqamətdə hər hansı fikir ifadə olunmadı. Qarabağdaki, etnik ermənilərin hüquq və təhlükəsizliyinin Azərbaycan dövlətinin daxili iş olduğunu və bununla bağlı Azərbaycanın üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi istiqamətində addımların atıldığını əks olunması hesab edirəm görüşün çox müsbət nəticələrindən biridir.

***- Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edib. Sizcə, bundan sonra Azərbaycan-Ermənistan sərhədində erməni təxribatları baş verməyə bilər?***

- Brüssel görüşündə, eyni zamanda, Ermənistanda hökumətin, parlamentin iclaslarında Paşinyan dəfələrlə Azərbaycanın ərazi bütövlüyünün tanınması ilə bağlı fikirlər və bəyanatlar səsləndirib. Amma məhz bu görüşdə ilk dəfə konkret sərhədlər daxilində yəni, 86,6 min kvadrat kilometr ərazimizin Qarabağda daxil olmaqla Xankəndi, Əsgəran Ağdərə, Xocalı və digər yaşayış məskənlərimizdə daxil olmaqla sərhədlərimiz daxilində ərazi bütövlüyümüzü tanıdığını bəyan etdi. Amma biz qarşı tərəfin kim olduğunu heç vaxt unutmamalıyıq. Qarşımızda riyakar, ikiüzlü, hiyləgər ermənilər və onun lideri dayanır. Yəni istənilən vaxt öz imzasından, danışdığı sözdən, ifadə etdiyi fikirlərdən imtina etməyə hazır qeyri-ciddi bir xalq və lideri dayanır. Ona görə də, hesab edirəm ki, bu mövqe Ermənistan-Azərbaycan sərhədində Ermənistan tərəfindən törədiləcək təxribatların yekunlaşdığı kimi qəbul edilə bilməz. Əksinə, hesab edirəm ki, bu görüşdə Ermənistanın maraqlarının geniş şəkildə təmin olunmaması, Ermənistanın havadarı Fransanın bu görüşlərdə iştirakının təmin edilməməsi məhz həmin dövlətin Fransa tərəfindən təhrik edilməklə təxribatlarının sayını, əhatə dairəsini artıra bilər. Bu baxımdan, biz Azərbaycan olaraq, hər zaman bu təxribatlara hazır olmalıyıq, ehtiyatlı olmalıyıq. Hesab edirəm ki, bu istiqamətdə də Azərbaycanın müvafiq qurumları, Azərbaycan ordusu zəruri ehtiyat tədbirlərini görür, Ermənistanın istənilən təxribatına qarşı ən kəskin şəkildə də cavab vermək gücündə və qüdrətindəyik və bunu dəfələrlə də sübut etmişik.

**GÜLYANƏ**



Təhmasib Novruzov

# Diqqət, canlı efir!..

Məndən soruşsalar ki, efir üçün ən çətin, ən məsuliyyətli və ən əziyyətli, həm də ən çox istedad tələb edən televiziya verilişi hansıdır, düşünmədən cavab verərdim ki, məzmunundan asılı olmayaraq ən çətin televeriliş efirə canlı verilən verilişlərdir. Çoxu deyəcək ki, yox, nə var canlı verilişə, adamlar gəlir, canlı-canlı danışır, operatorlar üzdən, yandan, lazım gələndə arxadan (?) onu efirdə canlandırırlar, vəssalam. Təkrar-təkrar çəkilişə ehtiyac olmur, rejissorun, redaktorun nəyisə kəsməsinə, doğramasına, montajçının saatlarla oturub gözlərinin nurunu tökə-tökə rejissorun və redaktorun verdiyi təlimata uyğun efirdə nümayiş etdirilməsi üçün montaj işini həyata keçirmir. Niyə çətin olsun ki? Və əslində, belə düşünənlər də haqlıdır. Amma gərək canlı veriliş elə ölçülüb-biçilsin, aparıcılar elə tələbkarlıqla və ustalıqla idarə edə bilsinlər ki, kimin ağzına nə gəlirsə cəmiyyətə ötürə bilməsin. Yəni aparıcı da, dəvət olunan qonaqlar da, ekspertlər də başa düşsünlər ki, onların efirdə dedikləri hər kəlmə birbaşa milyonların evində səslənir, evlərdə isə ata qızı, ana oğlu, qardaş bacısı və sair ilə birlikdə izləyir bu canlı ”veriliş”i. Müqayisə üçün xatırlayaq. Xoşqədəm Hidayətqızının müəllifi olduğu ”Səni axtarıram” proqramı Azərbaycan teleməkanında bir inqilab kimi araya-ərsəyə gəldi və ölkənin uzun illər bir nömrəli verilişi kimi sevilə-sevilə baxılırdı.

O vaxta qədər ki, ” Səni axtarıram” gündəlik canlı, həm də saatlarla efirdə nümayiş etdirilməyə başladı. İndi adamlar anlaya bilmir ki, bu veriliş axtarış verilişidir, istintaq verilişidir, evləndirmə-boşandırma verilişidi, xeyriyyə verilişidi, yoxsa sağlamlıq, müalicə, həkimləri reklam verilişidi! Bütün bu mövzuları bir yerə yığan və hərəsindən bir yarpaqla ”həftəbecər” proqram yaradan Xoşqədəm xanım, həmin verilişə təkcə şou-proqram əlamətlərini soxuşdura bilməyəndə, şənbə-bazar bir veriliş də açıb, iki gün də orada tamaşaçıları ”feyziyab” etməyə başladı. Bütün verilişlərdə də ailə üzvlərindən sitatlara xüsusi yer verir, sanki Hidayət kişi Aristoteldən çox bilirmiş və o böyük alimdənsə elə ondan sitatlar gətirməyə üstünlük verir. Efirə canlı gedən bu ”veriliş”in və onun kserosurəti olan ”Bizimləsən”, ”Təsir dairəsi”, ”Elgizlə izlə”, ”Dərdini bizə danış” verilişlərinin Azərbaycan cəmiyyətində mənəviyyatın aşılanmasında rolundan isə palaz-palaz yazılar yazsaq, yenə azdır. Adlarını çəkdiyimiz bu verilişlərin mənəvi aşınmaya xidməti bir yana, ekspert kimi əyləşib xorla danışmaları, bəzən bir-birlərini aşağılamaları cəmiyyətə nəyi təlqin edir görəsən? Hələ onu demirik ki, biri özünü dramaturq, o biri Azərbaycanın ən qabaqcıl saytının rəhbəri, bir başqası ölkənin bir nömrəli psixoloqu və sair kimi təqdim edir. Bir ölkənin dramuturq xanımı bu səviyyədədirsə, yaxud kişi ekspert uzun burunla efirdə aylarla göründükdən sonra burun əməliyyatı etdirib efirə xırda burunla davam edirsə, cəmiyyət o canlı ”veriliş”dən nə götürə bilər? Həmin verilişlərin reklam vaxtı isə ”verilişlər”in özündən uzun çəkir və müvafiq qurumlar da bu qanun pozuntusunu can-başla seyr edirlər.

Reklamdan danışmışkən, bəzən televiziya əməkdaşları xalqa təmənnasız xidmətdən ağızdolusu danışırlar. Unudurlar ki, televiziya verilişləri tamaşaçılara dolayısı ilə satılır və tamaşaçı da onu bəyənib-bəyənməməsindən asılı olmayaraq almaq məcburiyyətindədir. Yəni televiziyaların əsas ”çörək ağacı” hesab olunan reklamları verən firmalar, şirkətlər, müəssisələr, ticarət, iaşə obyektləri, lap elə müğənnilər, həkimlər reklama ödədikləri məbləği, qanuni olaraq, istehsal etdikləri, satdıqları məhsulları, göstərdikləri xidmətlərin maya dəyərinin üzərinə əlavə edirlər və xalqdan bu yolla həmin reklamların pullarını almış olurlar. Yəni birbaşa olmasa da, dolayısı ilə həmin verilişlərin hazırlanması və efirə getməsi üçün lazım olan vəsaiti vətəndaşlar ödəmiş olurlar. O zaman vətəndaşın istehlakçı olaraq daha keyfiyyətli məhsul (oxu: veriliş-T,N,) tələb etməsi tamamilə təbiidir. Ancaq nədənsə vətəndaşlar, xüsusilə ziyalı kəsim susur, bizlər susduqca mətanətlər, toliklər, rövşənələr, ”həmin” zaurlar efirlərdə at oynadır, ”burda mənəm, Bağddadda kor xəlifə” deyib gerçək yaradıcıların efirlərə yaxın düşmələrinə imkan vermirlər və verməyəcəklər də. Beləcə efirdə Tolikin ”evlənməkdənsə, gedib Almaniyada süni mayalanma ilə uşaq əldə etmək” məsləhətinə, ”həmin” Zaurun qadınların hamiləliyini atalara, analara, ərlərə efirdən xəbər verməsi və bu kimi ikrah doğuran aparıcıların tükürpədən kəlamlarına qulaq asmağa məcbur olacağıq. Onu demirik ki, həkimlərin teleməsləhətləri çoxaldıqca xəstəliklərin və xəstələrin sayı artır, yeməklərdən danışdıqca yeməklərin dadı qaçır. Vay ö günə ki, mollaların reklamı başlasın, o zaman ölümlərin də sayının birə on artacağı şəksizdir.

Yazmağına yazdım, ürəyimi boşaltdım. Bilmirəm, faydası olacaq, ya yox! Amma onu bilirəm ki, çoxları hələ məni qınayacaq, deyəcəklər ki, nə dərdinə qalıb, qoy camaat çörəyini qazansın. Amma bu yaxınlarda millət vəkilləri Sabir Rüstəmxanlının və Səyavuş Novruzovun Milli Məclisdə televiziya verilişləri haqqında danışarkən dedikləri kimi, axı ”beş manatı da halal qazanmaq gərəkir”, əziz televiziya ”qəhrəman”ları!.. Lənət şeytana, ”qəhrəman” dedim, yenə Xoşqədəm xanımın səfilləri, alkaşları, narkomanları ”qəhrəmanlarım” deyib efirdən təqdim etməsi yadıma düşdü!..

# Mühafizəçisi Heydər Əliyevin Moskvadakı son iş gününü belə xatırlayır

## Viktor Nemuşkov: "Bir lider kimi o, Sovet İttifaqının ən yaxşı liderlərindən biri idi. Çünki o, həqiqətən də qalanlarından çox şey etdi"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycançılıq ideyasının təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili- azərbaycançılıq ideologiyası bizi birləşdirən əsas dəyərdir" istiqaməti çərçivəsində hazırlanıb*



Heydər Əliyevin Moskvadakı son iş günü SSRİ DTK-nın 9-cu şöbəsinin əməkdaşı Viktor Nemuşkovun yaddaşında indiyə kimi qalıb. O, 1983-cü ilin yanvarından 1988-ci ilin may ayına kimi Heydər Əliyevin mühafizəsində işləyib. Ümummilli lider Siyasi Bürodan istefa verəndən sonra sonuncu işçilərdən biri kimi onunla vidalaşdı, çünki son gün və son saata kimi onun şəxsi mühafizəsində qaldı. Peşəsinə görə Viktor İvanoviç sentimental insan deyil, amma Heydər Əliyevin əl sıxmasını xatırlamaq onun üçün xoşdur. O, bu barədə "Moskva-Bakı" portalına müsahibəsində danışıb. Viktor Nemuşkovun təəssüratlarını oxucularımızın diqqətinə çatdırırıq.

"Son gün onun yanına gəldim. Hamımızı dərhal onun mühafizəsindən çıxarmamışdılar, birincisi, sonra ikincisi, üçüncüsü tərk etdi və s. Bizim də sahə mühafizəçiləri var idi, onları daha tez, plenumdan dərhal sonra çıxardılar. Amma biz hələ də onunla idik. Son gün adi insanlar kimi danışdıq. O, bizimlə əl sıxdı və işimizə görə təşəkkür etdi. Amma biz onun mühafizəsindən çıxarılandan sonra onunla daha çox görüşürdük",- Viktor İvanoviç xatırlayır.



Heydər Əliyev istefa verəndən sonra bir müddət Moskvada yaşayıb. Və bir çox həmkarları və məşhur şəxsiyyətlər onunla görüşlərini, artıq adi bir moskvalı ilə olduğu kimi xatırlayırlar. Məsələn, məşhur teatr və kino aktrisası Natalya Seleznyova yaxşı xatırlayır ki, 80-ci illərin sonlarında Heydər Əliyev və onun oğlu ilə ilk dəfə paytaxtın adi əmanət kassasında tanış olub.

"Moskvada Əliyevlər ailəsi ilə demək olar ki, bir evdə yaşayırdıq. Heydər Əliyevlə İlhamı ilk dəfə evimin yanında olan əmanət kassasında gördüm. Mən onların arxasında növbəyə durdum və dərhal diqqətimi çəkmişdilər. Onlar bütün kişilərdən fərqli idilər. Onların birbirləri ilə necə sakit danışdıqlarını izlədim, heyrətamiz təvazökarlıqlarına heyran oldum"- aktrisa xatırlayır.

Həyatda mehriban və təvazökar, işində məsuliyyətli və ciddi insan olan şəxsi mühafizəsinin müavini Viktor Nemuşkov Heydər Əliyevlə işlədiyi illəri belə xatırlayır: "O, qətiyyətli və qərar qəbul etməyi bacaran bir insan idi. Heç nəyi unutmur, hər şeyi nəzarətdə saxlayırdı. Onun mühitində işləyənlər də zarafata vaxtın olmadığını mükəmməl başa düşürdülər. Əgər sənə bir növ tapşırıq verilibsə, o zaman onu yerinə yetirməli və hesabat verməlisən".

Viktor İvanoviçin sözlərinə görə, Heydər Əliyevin təhlükəsizliyi onlar üçün məsuliyyətli vəzifə idi. Heydər Əliyev səfərləri zamanı tez-tez camaatın arasına çıxdığından müxtəlif insanlarla söhbət edirdi. Heydər Əliyevin həyatı üçün real təhlükə epizodları olduğundan mühafizəçilər üçün iş asan deyildi. Viktor İvanoviç hansısa təhdidləri bizə açıqlamadı, lakin qeyd etdi ki, Heydər Əliyeviç heç vaxt təhlükəsizliyin təmin edilməsi prosesinə qarışmayıb və öz komandasına tam etibar edib.

"Hər hansı təhdidlər olubmu? Ya da ola bilsin, onlar var idi, amma biz onların qarşısını aldıq, imkan vermədik. Biz öz hərəkətlərimizlə, ona münasibətdə mövqe tutmaqla düşmənə öz niyyətini həyata keçirməyə imkan vermədik. Beləliklə, biz bu problemi müvafiq olaraq həll etdik. Nədən başladığımıza necə qərar verdiyimiz başqa sualdır. Real təhlükəsizlik məsələlərinə gəlincə, məsələn, tədbir təşkil etmək, bu tədbirdə təhlükəsizliyi təmin etmək- bu, bizim vəzifəmiz idi. Ona görə də burada onunla məsləhətləşirdik, xəbərdar edirdik, nəsə təklif edirdik. Və o da öz növbəsində bəzi qərarlar verirdi. Üstəlik, özü orqanlardan olan adam olduğu üçün bu məsələdə heç bir problemimiz yox idi. O, işimizi və müəyyən təhlükələri necə qiymətləndirdiyimizi mükəmməl başa düşürdü. O, bizim necə işlədiyimizə baxır və öz qiymətini verirdi", - Viktor İvanoviç bildirib.

Sonda Viktor İvanoviç qeyd etdi ki, o, Heydər Əliyevdən çox şey öyrənib, onun kimi görkəmli siyasətçi və gözəl insanla işləmək imkanının olmasından çox qürur duyur.

"O, əlçatan insan idi. İnsanları eşitməyi və dinləməyi bilirdi, ondan soruşulan problemləri dərindən araşdırır və problemi mümkün qədər tez həll etməyə, həyata keçirməyə və ya həll etməyə çalışırdı. Bir lider kimi o, Sovet İttifaqının ən yaxşı liderlərindən biri idi. Çünki o, həqiqətən də qalanlarından çox şey etdi. Əvvəla, onun Azərbaycanda fəaliyyəti çox yaxşı nəticələr verdi. Moskvada işləyəndə isə cavabdeh olduğu bir çox sahələr var idi. Xüsusilə, Baykal-Amur magistral xətti. O, bütün məsələlərdə çox ciddi və vicdanlı idi və mümkün qədər çox şey etməyə çalışırdı"- Viktor İvanoviç deyib. Videomüsahibəyə buradan baxa bilərsiniz

***Tərcümə - Elçin Bayramlı***

# Yaxın qohumları Azərbaycan vətəndaşı olanlara daimi yaşamaq icazəsi verilib

**Atası, anası, əri (arvadı), övladı, bacısı və ya qardaşı Azərbaycan vətəndaşı olanlara daimi yaşamaq icazəsi verilib. SİA xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Miqrasiya Məcəlləsinə dəyişiklikləri təsdiqləyib.**

Belə ki, Məcəllənin 46-cı maddəsində əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq icazəsinin verilməsi (müddətinin uzadılması) üçün tələb olunan sənədlər sadalanır. Yeni layihəyə əsasən bu sənədlər siyahısına, həmçinin sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsin və ya müraciətlə əlaqəli hüquqi şəxsin son 1 ildə təqdim etdiyi bəyannamə üzrə dövriyyəsinə dair vergi orqanından əldə edilmiş sənəd daxil edilib.

Miqrasiya Məcəlləsinin 52.1-ci maddəsində əsasən bu Məcəllənin 45.1.1-45.1.7-ci maddələrində nəzərdə tutulmuş əsaslarla müvafiq icazə əsasında son 2 il ərzində fasiləsiz olaraq Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər (bu Məcəllənin 45.1.8-45.1.11-ci maddələrində nəzərdə tutulmuş əsaslarla Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə almış əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin ailə üzvü olduğuna görə müvəqqəti yaşamaq üçün icazə almış şəxslər istisna olmaqla) Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq icazəsi almaq üçün vəsatət verə bilərlər. Qeyd olunan maddə təkmilləşdirilərək yeni redaksiyada verilib.



Belə ki, Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq icazəsinin əcnəbilərə ölkə ərazisində uzun müddət yaşamaq, icazə almadan haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq, gələcəkdə Azərbaycan Respublikası vətəndaşlığının əldə edilməsi üçün müraciət etmək imkanı və digər geniş imkanlar yaradır. Bu baxımdan həmin mexanizmin təkmilləşdirilməsi zəruridir. Bundan başqa, qabaqcıl ölkələrin təcrübələrinə əsasən əcnəbilər yüksək ixtisaslı mütəxəssis və ya ərazisində olduğu ölkənin vətəndaşı ilə birinci dərəcəli (ata, ana, ər (arvad) və övlad) yaxın qohum olarsa, həmin ölkə ərazisində daimi yaşamaq icazəsi almaq imkanı verilir. Bu baxımdan qohumluq münasibətlərinə görə daimi yaşamaq icazəsinin alınması üzrə qohumların dairəsinin məhdudlaşdırılması və yalnız müraciət edən şəxsin atası, anası, əri (arvadı), övladı, bacısı və ya qardaşı Azərbaycan Respublikasının vətəndaşı olduqda daimi yaşamaq icazəsi ala biləcək.

SƏS

17 may
2023-cü il

## “Mədə xərçəngi qarşısı alına bilən bir xəstəlikdir”



”Mədə xəstəlikləri istənilən yaş qrupunda görülə bilər. Mədə xəstəliklərinin yaranmasının başlıca səbəbi həyat tərzi-qidalanma və genetik faktorlar rol oynayır. Qidalanma çox vacib faktorudur. Mədə yediyimiz qidanın özü və tərkibi ilə bir başa təmasda olur”. SİA xəbər verir ki, Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, qastroenteroloq Emin Məmmədov bildirib.

Onun sözlərinə görə, fast-food, şəkərli içkilər, hazır və duzlu qidalar, spirtli içkilər mədə xəstəliklərinin əsas risk faktorudur: ”Mədəyə ən çox zərər göstərən digər faktor dərman vasitələridir, xüsusi ilə ağrı kəsici iltihab əlehinə dərmanlar. Mədənin qoruyucu baryerini zəiflədərək, eroziya və xoraların yaranmasına səbəb olur, bəzən qanaxmaya gətirib çıxara bilir.

Digər risk faktoru, Helikobakter pylori mədə mikrobudur. Bu isə öz növbəsində mədədə qastrit, xora, qan azlığı, mədə xərçənginə səbəb ola bilər. Belə infeksiya aşkarlanarsa, mütləq müalicə olunmalıdır. Genetik amil də çox vacibdir. Beləki birinci dərəcəli qohumlarda mədə xərçəngi aşkarlanmış şəxslərə mütəmadi erkən endoskopik müayinələrdən keçmək tövsiyə olunur.

Bildirmək istərdim ki, mədə xərçəngi qarşısı alına bilən bir xəstəlikdir, çünki formalaşması üçün zaman lazımdır. Erkən aşkar edilərsə, xəstəliyin qarşısı ala bilər. Həmçinin, 40 yaşına çatmış şəxslərin müayinə olunmasını tövsiyə edilir”.

*Səbinə Hüseynli*

# “Hamı repetitor yanına gedirsə”



## Təhsil eksperti repetitor fəaliyyəti ilə bağlı məsələlərə aydınlıq gətirib



”Repetitorluqla bağlı məsələlərə birmənalı yanaşmaq düzgün mövqe ola bilməz. Bir mənalı şəkildə demək olmaz ki, maksimal bal toplayanlarn hamısı repetitor xidmətindən istifadə ediblər. Eynilə, onu da demək olmaz ki, ”Repetitor yanına getməmişəm” deyənlərin hamısı öz etiraflarında səmimidirlər”. Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Nadir İsrafilov deyib.

Nadir İsrafilov sözlərinə belə davam edib: ”Ümumiyyətlə götürdükdə, əksər yüksək bal toplayanların repetitor xidmətindən istifadə etməsi barədə cəmiyyətdə yaranan təsəvvürlər heçdən və nahaqdan yaranmayıb. Heç də əbəs deyil ki, uzun illərdən bəri geniş cəmiyyətin müəyyən qrupu arasında ”təhsilimiz repetitorların çiynində inkişaf edir” kimi təsəvvürlər formalaşıb. Bununla belə öz təcrübəsinə əsaslanan mənim kimi bir çoxları şahidi olmamış deyillər ki, hətta ucqar regionlarımızdan belə repetitor yanına getmədən yüksək balla hətta xarici dövlətlərin ən nüfuzlu ali məktəblərinə qəbul olunan xeyli sayda məzunlarımız var.

Bir də ki, yüksək bal toplayanları ”repetitor yanına gedənlər” və ”repetitor yanına getməyənlər” kimi təsnifatlandırmaq heç də məsələnin həllinə düzgün yanaşma hesab oluna bilməz. ”Gedənlərin” və ”getməyənlərin” faizini çıxarmağa da lazımı ehtiyac yoxdur. Görünən kəndə nə bələdçi? - deyib atalarımız. Nəticəni dəyərləndirmək üçün səbəblər araşdırılmalı və nəticəyə təsir edən maneələr aradan qaldırılmalıdır. Məsələ ondadır ki, bir sıra xəstəliklərin cavanlaşması kimi, bu qeyri-rəsmi fəaliyyət sahəsi də ildən ilə erkən xarakter alır, getdikcə məktəblilərin daha kiçik yaş qruplarını əhatə edir. Xəstəliyi aradan qaldırmaq üçün xəstəni öldürmək yox, müalicə etmək lazım gəldiyi kimi, repetitorluqdan xilas olmaq üşün də onu ləğv etmək yox, onu doğuran səbəbləri ”müalicə” etmək, yəni aradan qaldırmaq lazımdır.

Heç kəsə sirr deyil ki, repetitorluq testin tətbiqi və ali məktəblərə qəbulun ixtisaslar üzrə aparılmasından ortalığa çıxan təzahür olub və getdikcə hətta bəziləri tərəfindən ”təhsililimizin bəlası” adlandırılan bir problemə çevrilib. Əgər, təşəkkül tapdığı ilk vaxtlar paytaxtın və bir sıra digər şəhər mərkəzlərinin müəyyən imkanlı ailələri 10-11-ci sinifdə oxuyan övladları üçün repetitor xidmətində maraqlı idilərsə, indi ən ucqar rayon və kəndlərin ən imkansız ailələri belə yuxarı və aşağı sinif fərqindən asılı olmayaraq əlavə müəllim tutmaq, el arasında deyildiyi kimi uşaqlarını müəllim yanına hazırlığa göndərmək zərurəti qarşısında qalıblar. Daha konkret desək, repetitor dəstəyinə yönəlmənin ilkin və başlıca səbəbi, ali məktəbə daxil olmaq sevdası ilə bilavasitə əlaqədardır. Bu mənada nazirin ”repetitorluq ləğv edilə bilməz, yalnız tənzimlənə bilər, hər bir insan övladını əlavə dərs üçün müəllim yanına qoya bilər” açıqlaması ilə razılaşmamaq ədalətsizlik olardı.

Nazir bir müddət əvvəl də keçirdiyi brifinqdə repetitorlara tələbatın artması məsələsinə toxunaraq bildirmişdi ki, repetitorluq imtahan sistemi ilə bağlıdır: ”Bizdə imtahan rəqabətə bağlıdır. Deyilir ki, təhsildə keyfiyyət yoxdur, ona görə uşaq repetitor yanına gedir. Bir tərəfdən də bildirilir ki, qəbul imtahanının nəticələri aşağıdır. Hamı repetitor yanına gedirsə, qəbul imtahanının nəticələrinin aşağı olmasının səbəbi də repetitordur. Yaxşı nəticə olanda bu, repetitorun olur, pis nəticə olanda isə təhsil sisteminin? Bu nə qədər məntiqli arqumentdir?”.

Brifinqə Emin Əmrullayev təhsilin keyfiyyətinin artırılması istiqamətində işlər aparılacağını da söyləmişdi. Belə çıxır ki, repetitorlara münasibətdə sanki, labirintə girmişik, çıxa bilmirik. Repetitorluğu saxlasaq bunu ”Təhsilimizin bəlası”, ”Zehni əməyin qara bazarı”, ”kölgə təhsilinin atributu” adlandıranların, bu fəaliyyət növünə ”məktəbi və onun nüfuzunu xilasetmə vasitəsi” kimi baxanların, ”təhsilimiz repetitorların çiynində qərarlaşıb” mövqeyində olanların sayı bir az da artacaq, repetitorluğu ləğv etsək, bu təhsilimiz üşün ”bumeranq” effekti yaradacaq, məktəb mühitinin deqredasiyası sürətlənəcək, yüzlərlə kurslar, hazırlıq mərkəzləri fəaliyyətdən kənar qalacaq, minlərlə müəllim əlavə çörək pulundan məhrum olacaq, buraxılış və qəbul imtahanlarının kəsəri azalacaq və s.

Beləliklə belə çıxır ki, repetitorlara münasibətdə dilemma qarşısında qalmışıq. Tədris planı və təhsil proqramlarında dəyişiklik etmiriksə və əgər mövcud durumda repetitorluq bu dərəcədə qaçılmazdırsa, məktəblərin reytinqi hələ ki, ali təhsil müəssisələrinə qəbulun nəticələri ilə ölçülürsə, ən yaxşı məktəb də ali təhsil müəssisələrinə qəbulun nəticələrinə əsasən müəyyən olunursa, təhsil elitar və eqelitar xarakter alıbsa, repetitorluğu inzibati yollarla aradan qaldırmaq qeyri-mümkündürsə, bəlkə onu sahibkarlıq fəaliyyətinin bir növü kimi rəsmiləşdirmək barədə düşünmək daha məqsədəuyğun olardı. Bu halda, həm məktəb, həm müəllim, həm şagird və valideyn qazanar. Şagird əlavə hazırlıq üçün, artıq məsafə qət etməyib, öz məktəbində, öz müəllimləri ilə məşğul olar. Bir məkandan digər məkana gediş-gəlişlərə son qoyular. Dərsdən yayınma halları nəzərə çarpacaq dərəcədə azalar. Valideynin öz övladının məktəbdə olması barəsində arxayınçılığı tam təmin olunar, onun etdiyi ödənişi kənar mənbələrə deyil, məhz müəllimin, təhsil aldığı məktəbin ehtiyaclarına hesablanar. Müəllim-şagird-valideyn münasibətləri tənzimlənər. Yox, əgər bu variantı da məqbul hesab etmiriksə, digər çıxış yolunu imtahanların sadələşdirilməsində, əksəriyyət üçün daha əlçatan olmasında, imtahan modelinin dəyişdirilməsində, dünyanın bir çox ölkələrində olduğu kimi, təkpilləli vahid imtahan modelinə keçilməsində görürəm.

Kimin hansı mövqedə olmasından asılı olmayaraq gəldiyim qənaət ondan ibarətdir ki, repetitorluq bütün faydaları nəzərə alınsa belə məktəb mühitini deqredasiyaya uğradır, yuxarı siniflərdə isə şagirdlərin sosiallaşmasının qarşısını alır. Bunun qarşısının alınması üçün məktəblərdə təhsilin səviyyəsi yüksəldilməli, təhsilverənlər və təhsil alanların öz doğma məktəblərinə qayıtmaları təmin olunmalıdır. Məsələyə məntiqi cəhətdən yanaşsaq belə sual qarşısında qalırıq: ”Axı, niyə rəsmi fəaliyyət sahiblərinin görməli olduğu işi, qeyri-rəsmi fəaliyyətlə məşğul olanlar görməlidirlər ...?”.

*Ayşən Vəli*

## “Nar”ın tərəfdaşlıq etdiyi Baku Open 2023 Şahmat turnirinin qalibləri bəlli oldu

Ümummilli lider Heydər Əliyevin 100 illiyi münasibətilə təşkil olunan ”Baku Open 2023” beynəlxalq şahmat turniri yekunlaşdı. 32-si qrosmeyster olmaqla, 600-dən çox şahmatçının iştirakı ilə keçən turnirin A qrupu üzrə qalibləri qadınlar arasında Bolqarıstan təmsilçisi Nurgül Səlimova, kişilər arasında Hindistan təmsilçisi Leon Luke Mendonca olub.

Xatırladaq ki, ”Nar” ”Baku Open 2023” şahmat turnirinin rəsmi tərəfdaşıdır. Turnirə dəstək ”Nar”ın Korporativ Sosial Məsuliyyət (KSM) strategiyasının təhsil istiqaməti çərçivəsində həyata keçirilir. ”Nar”ın sosial layihələri haqqında ətraflı məlumatı buradan əldə edə bilərsiniz.

”Nar” hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. ”Nar” son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.






## Toyuq əti ucuzlaşacaq?

Arpa, buğda, kəpək kimi dənli bitkilərin qiymətində enmə müşahidə olunur. Bəs, bu halda toyuq əti ucuzlaşa bilər? SİA mövzu ilə bağlı iqtisadçı-ekspert Eyyub Kərimlinin fikirlərini öyrənib. Onun sözlərinə görə, məlum olduğu kimi, idxal olunan quş yemi gömrük rüsumundan bir neçə illik azad olunmuşdu: ”Həmçinin, ölkədə artıq buğda və arpanın biçim mövsümü başlayıb. Bu da sözsüz ki, qiymətlərin aşağı enməsinə təsir göstərir.

Hesab edirəm ki, bu baxımdan toyuq ətinin qiymətində enmə müşahidə edə bilərik. Çünki bundan əvvəl quş əti istehsalçıları yemin bahalaşması ilə əlaqədar qeyd edirdilər ki, ”Yem bahadır və quş ətinin qiyməti artıb”. Amma əgər yem ucuzlaşıbsa, quş ətində də 15-20 faiz qiymət enimi müşahidə edə bilərik”.

*Ayşən Vəli*

## ELAN

2011-2012-ci tədris ilində Bakı şəhəri Məktəb Lisey Kompleksini tam orta təhsil bazası üzrə bitirmiş Nağıyev Nağı Vəli oğluna verilmiş tam orta təhsil bazası haqqında ANº 099337 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**